QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 087 (5559) 5 **may** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# "Bu gün Azərbaycan xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilib"

## *Prezident İlham Əliyev Xaçmaz və Xızı rayonlarına səfər edib*




Səh 2

12

**Milli Məclisin növbəti plenar iclası keçirilib**



13

**Ermənistanda xalq-iqtidar savaşı şiddətləndi**



16

**Mariya Stadnik Avropa çempionu oldu!**



# "Bu gün Azərbaycan xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilib"

## *Prezident İlham Əliyev Xaçmaz və Xızı rayonlarına səfər edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu. Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev Prezident İlham Əliyevə abidənin ucaldığı Heydər Əliyev parkında və bütövlükdə rayonda görülən işlər barədə məlumat verdi.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaza səfəri çərçivəsində Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışını edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son 15 ildə bu sahədə çox mühüm uğurlar əldə olunub və bu istiqamətdə layihələrin icrası davam etməkdədir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir.

Son dövrlərdə rəmzi "40 yol" layihəsi çərçivəsində Xaçmazda Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunda da mühüm işlər həyata keçirilib. Ümumi uzunluğu 29 kilometr olan bu yolun müasir səviyyədə tikilməsi sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə regionların inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramlarına uyğun olaraq yolların müasirləşdirilməsi istiqamətində görülən işlərin həcmi ildən-ilə artmaqdadır. Bu tədbirlərin icrası, ilk növbədə, əhalinin rahatlığını təmin edir, onların mənzil başına təhlükəsiz çatmalarına imkan yaradır. Bundan başqa, yolların bu cür müasir səviyyəyə çatdırılması, təkcə yol üzərində olan rayonların deyil, ümumilikdə, həmin regionun sosial-iqtisadi inkişafına töhfə verir, turizm axınının davamlı olmasını təmin edir və yolboyu yerləşən yaşayış məntəqələrində sakinlərə əlavə iqtisadi imkanlar açır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 8 min nəfər əhalinin yaşadığı 8 məntəqəni birləşdirən, dördüncü texniki dərəcəli bu yolun hərəkət hissəsinin eni 6 metr, 2 hərəkət zolağının hər birinin eni 3 metr, hər iki tərəfdə çiyinlərinin eni 2 metr, ümumi torpaq yatağının eni isə 10 metrdir. İki laydan ibarət asfalt-beton örtüyün salınmasına 50,1 min ton asfalt-beton qarışığı sərf edilib. Yol boyunca 84 poqonmetr müxtəlif diametrli suötürücü borular tikilib, 145 yol nişanı və göstərici lövhə quraşdırılıb, 87 min metr uzunluğunda yol cizgi xətləri çəkilib. Avtomobil yolunun yenidən qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "8 saylı Xüsusi Təyinatlı Yol İstismarı" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən həyata keçirilib. Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycanda xalça toxuculuğu tətbiqi sənət növünün ən qədim sahələrindən biri hesab edilir. Ölkə ərazisində aparılan arxeoloji qazıntılar və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu tunc dövründə, yəni, 5 min il bundan əvvəl meydana gəlib. Azərbaycan xalçası boyalarının tükənməz zənginliyi, naxışlarının təkraredilməz qovuşuğu, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir.

Xalçalarımız dünyanın ən məşhur muzeylərini bəzəyir. Xalçaçılıq böyük mədəniyyətə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənətdir. Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bütün dünyada məşhurdur. Bu zonalarda toxunan xalçalar ilmələrinin sıxlığına, rəng çalarlarına, üz ipliyinin xovuna, toxunuşuna və ornamentlərinə görə seçilir. Hazırda Azərbaycan xalça sənəti özünün əsil dirçəliş dövrünü yaşayır. Prezident İlham Əliyevin həmin sahənin inkişafı ilə bağlı qəbul etdiyi qərarlar bu baxımdan xüsusilə əhəmiyyətlidir. Azərbaycan Prezidentinin Sərəncamı ilə "Azərxalça" ASC-nin yaradılması dövlət tərəfindən bu istiqamətdə görülən işlərin məntiqi davamıdır. İlkin mərhələdə "Azərxalça" ASC-nin Füzuli, Ağdam, Tovuz, Ağstafa, Qazax, Şəmkir, Quba, İsmayıllı və Qəbələ rayonlarında filiallarının yaradılması nəzərdə tutulmuşdu. 2016-2017-ci illərdə adı çəkilən bu rayonlarda binaların tikintisi başa çatdırılıb, filiallar fəaliyyətə başlayıb, Sumqayıt Kimya Sənaye Parkında yunəyiriciboyaq fabrikinin təməli qoyulub. Dövlətimizin başçısının sərəncamlarına uyğun olaraq Bakı və Naxçıvan şəhərlərində, Abşeron, Lənkəran, Biləsuvar, Kürdəmir, Qobustan və Şabran rayonlarında xalça istehsalı emalatxanalarının yaradılması davam edir. Növbəti filial Xaçmazda istifadəyə verilib.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına burada görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, ümumi sahəsi 1252,9 kvadratmetr olan filialın binası 0,37 hektar sahədə yerləşir. Burada 150 nəfər toxucu, 12 nəfər inzibati-təsərrüfat işçisi fəaliyyət göstərəcək. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və sair bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində toxunan tarixi və orijinal Şirvan çeşnilərı əsasında xalçaların toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular Xaçmaz rayonunun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursları filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursların məzunları "Azərxalça" ASC-nin sertifikatını alacaqlar. Xalça-satış salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək. Sonra Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev bildirib ki, bu fabrik sayca dördüncüdür və gələn ilin sonuna qədər artıq 30 fabrik işə düşəcək, minlərlə iş yeri yaradılacaq:

"Xalçaçılıq bizim milli sənətimizdir, milli sərvətimizdir. Azərbaycan xalqı bu sənəti əsrlər boyu yaşadır. Bizim xalçalarımız dünyanın aparıcı muzeylərində sərgilənir. Bakıda gözəl Xalça Muzeyi tikilib istifadəyə verilmişdir. Yəni, biz xalçaçılığı yaşatmaqla Azərbaycan xalqının nə qədər istedadlı olmasını dünyaya bir daha göstəririk. Eyni zamanda, gənc nəsil də, qızlar da bu sənətə cəlb olunurlar. Beləliklə, tam əminlik var ki, Azərbaycan dünyada xalçaçılığın inkişafında öz sözünü gələcəkdə də deyəcəkdir. İş yerlərinin yaradılması çox önəmli məsələdir. Qeyd etdiyim kimi, bu fabriklərin fəaliyyətə başlaması nəticəsində minlərlə iş yeri yaradılacaq.

**Ardı Səh. 3**

# "Bu gün Azərbaycan xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilib"

## *Prezident İlham Əliyev Xaçmaz və Xızı rayonlarına səfər edib*

Əvvəli-Səh-2

"Azərxalça"nın qarşısında bir vəzifə də qoyulub ki, xalçanın istehsalında istifadə edilən bütün xammal yerli xammal olsun. Bu məqsədlə indi ölkəmizin müxtəlif yerlərində yun tədarükü mərkəzləri yaradılır. Baramaçılıq sürətlə inkişaf etdirilir ki, ipək xalçalar da toxunsun. Sumqayıt şəhərində yunəyirici-boyaq fabriki inşa edilir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Beləliklə, bundan sonra xaricdən xammalın gətirilməsinə heç bir ehtiyac qalmayacaq. Yüz faiz yerli məhsul olaraq Azərbaycan xalçası dünyaya təqdim ediləcək.

Digər mühüm məsələ ondan ibarətdir ki, Azərbaycan xalçası çox yüksək keyfiyyətə malikdir və onun satış qiyməti də yüksəkdir. Beləliklə, həm ölkə daxilində, həm də xaricdə satılan xalçalar Azərbaycan iqtisadiyyatına töhfə verəcək, ölkəmizə valyuta gələcək və qeyri-neft sektorumuz da inkişaf edəcək.

Bax görürsünüz, xalçaçılıq sənətinin inkişafı və "Azərxalça"nın uğurlu fəaliyyəti nəticəsində biz bir neçə məqsədə çatmış oluruq. İş yerləri, yerli istehsal, xammalın təşkili və ölkəmizin dünyada təbliği baxımından xalçaçılığın çox böyük önəmi var. Təsadüfi deyil ki, müxtəlif ölkələrdə keçirilən sərgilərdə, təqdimatlarda mütləq Azərbaycan xalçası təqdim edilir.



Onu da qeyd etməliyəm ki, Xaçmazda digər infrastruktur layihələri icra edilir, qazlaşdırma artıq 80 faizdən çoxdur, yeni yollar salınır. Bu gün həm kənd yolu, həm də Xaçmaz-Xudat yolu açılacaqdır. Mənə verilən məlumata görə, son illərdə 7 yol layihəsi icra edilib və əhalinin 70 faizi artıq yeni yollarla əhatə olunub. Bu proses gələn illərdə də davam etdiriləcəkdir. Elektrik enerjisi ilə heç bir problem yoxdur və Xaçmaz rayonunda qazlaşdırma 100 faizə çatmalıdır. Qarşıya belə vəzifə qoyulub, yaxın gələcəkdə biz buna da nail olacağıq."

Daha sonra dövlətimizin başçısı burada toxunan Quba qrupuna aid ilk hazır xalçanı kəsdi. Sonda xatirə şəkli çəkdirildi.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışında iştirak edib.

Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə ölkədə həyata keçirilən kompleks tədbirlər nəticəsində regionlarda içməli su təchizatı və kanalizasiya infrastrukturu müasir tələblərə uyğun olaraq yenidən qurulur, sakinlərin keyfiyyətli və fasiləsiz içməli su təminatı sahəsində mühüm nailiyyətlər əldə edilib. Respublikamızın mühüm aqrar-sənaye və turizm potensialına malik rayonlarından sayılan Xaçmazda əhalinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2012-ci ildə başlanmış "Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrası başa çatıb.

AZƏRTAC xəbər verir ki, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına "Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi barədə məlumat verdi.Bildirildi ki, Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşən "Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Xaçmaz şəhərində 47 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 5 kəndi də daxil olmaqla, layihədən 58 min nəfər faydalanacaq.

Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi" Xaçmaz şəhəri ilə yanaşı, Qusar, Naftalan, Qobustan və Xızı şəhərlərinin də içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını əhatə edir. Artıq bu şəhərlərdə su və kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşıb. Layihənin sonuncu mərhələsində tullantı sutəmizləyici qurğuların inşası həyata keçiriləcək.

Ümumilikdə 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. Bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 10-da isə su şəbəkəsinin inşası yekunlaşdırılıb. Bu ilin sonuna qədər daha bir neçə şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulub. Sonra Prezident İlham Əliyev Xaçmaz şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaza səfəri çərçivəsində Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 24-48 kilometrlik hissəsini təşkil edən Xaçmaz-Xudat avtomobil yolunun açılışını edib.

Ardı Səh. 4

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

5 may 2018-ci il

# "Bu gün Azərbaycan xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilib"

## *Prezident İlham Əliyev Xaçmaz və Xızı rayonlarına səfər edib*







Əvvəli-Səh-3

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən ölkə əhəmiyyətli yollarla yanaşı, yeni kənd yollarının inşası, mövcudlarının isə müasir səviyyəyə çatdırılması sahəsində mühüm layihələrin icrası uğurla davam edir. Onlardan biri də Xaçmaz-Xudat avtomobil yoludur. Bu yolun yenidən qurulması ilə bağlı həyata keçirilən layihə sübut edir ki, ölkəmizdə avtomobil yollarının tikintisi və yenidən qurulması davamlı xarakter alıb. Bu tədbirlər vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsini göstərir. Kənd və qəsəbələri birləşdirən yolların müasir səviyyədə yenidən qurulması, ümumilikdə, həmin bölgənin turizm potensialının möhkəmləndirilməsi işinə də xidmət göstərir. Yolların yenidən qurulması yerləşdikləri ərazilərdə yük və sərnişin daşımasını xeyli yaxşılaşdırır, yetişdirilən məhsulların rahat şəkildə yaxın-uzaq bazarlara daşınmasına imkan yaradır. Bu da kənd təsərrüfatının inkişafına müsbət təsir etməklə yolboyu yaşayan əhalinin sosial rifahının yüksəlməsinə imkan verir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov yeni yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, birinci və üçüncü texniki dərəcəli yolun uzunluğu 24 kilometrdir. 2-4 hərəkət zolağına malik yolun hərəkət hissəsinin eni 7-15 metrdir. Hər iki tərəfdən çiyinlərin eni 2,5 metr, torpaq yatağının eni 19 metrdir. Yolun tikintisi zamanı genişmiqyaslı torpaq işləri görülüb, 2 laydan ibarət 13 santimetr qalınlığında asfalt-beton örtüyü döşənib. Yolboyu asfalt-beton qarışığından səkilər tikilib, geniş ərazidə beton səki daşları düzülüb. Yolda lazım olan bütün infrastruktur yaradılıb, xeyli sayda yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilib.

Xaçmaz-Xudat avtomobil yolunun yenidən qurulması 54 min nəfər əhalisi olan 59 yaşayış məntəqəsini birləşdirən yük və sərnişin daşımasını xeyli yaxşılaşdırmağa, bölgədə turizmin inkişafına imkan verməklə yanaşı, Yalama sərhəd keçid məntəqəsi ilə rahat nəqliyyat əlaqəsini də yaratmış olur. Bu da həmin yolun həm də beynəlxalq əhəmiyyətinin bir göstəricisidir. Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xızı rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Xızı şəhərinin mərkəzindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu. Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov parkda görülən işlər, həmçinin rayonda həyata keçirilən abadlıq və quruculuq tədbirləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident qeyd edib ki, Xızı şəhərində içməli su problemi həmişə insanları narahat edirdi. Artıq bu məsələ öz həllini tapıb. Xızıda içməli su layihəsinin başa çatması ilə biz demək olar ki, şimal zonasının bütün şəhərlərinin içməli su problemi həll olunub:

*Ardı Səh. 5*

# “Bu gün Azərbaycan xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilib”

## *Prezident İlham Əliyev Xaçmaz və Xızı rayonlarına səfər edib*

**Əvvəli-Səh-4**

“Əvvəlki dövrlərdə Qusar, Quba, Şabran, Siyəzən şəhərlərinin, bu gün isə biz Xaçmaz şəhərinin içməli su layihəsinin açılışını qeyd etdik. Yəni, şimal zonasının şəhərlərinin içməli su ilə bağlı problemləri öz həllini tapıbdır. Bir sözlə, Xızı rayonunun sosial-iqtisadi inkişafı uğurla gedir. Ümid edirəm ki, gələcək illərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək. Çünki Taxtakörpü su anbarının tikintisi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində bütövlükdə bu bölgədə 30 min hektar torpaq sahəsi su ilə təmin ediləcəkdir. Bunun 12 min hektarı Xızı rayonunun payına düşür - 9 min hektar yeni suvarılan sahələr olacaq, 3 min hektar isə su verilmiş, ancaq kifayət qədər olmamış sahələrdir. Son məlumata görə, bu 9 min hektar yeni suvarılacaq torpaqlardan 3 min hektarı artıq suvarma suyu ilə təmin edilib. Əlbəttə, biz gözləyirik ki, Xızı rayonunda kənd təsərrüfatı sürətlə inkişaf etsin. İndi yol ilə gələndə gördüm ki, müasir suvarma sistemləri də qurulur, sahələr pivot suvarma üsulu ilə suvarılır. Beləliklə, həm məhsuldarlıq artacaq, həm də yeni sahələrin dövriyyəyə cəlb edilməsi nəticəsində yeni iş yerləri yaradılacaq. Buna görə mən Xızı rayonunun gələcək inkişafını çox müsbət görürəm, böyük nikbinliklə baxıram. Rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülüb. Yollar, elektrik enerjisi, qaz xətləri, indi içməli su, xəstəxana. Bildiyiniz kimi, bir neçə ildir ki, ölkəmizdə kütləvi müayinədən keçmə kampaniyası aparılır, hər il 5 milyondan çox insan dövlət hesabına müayinədən keçir və belə gözəl xəstəxanalarda bunu etmək mümkün olur.



Ölkəmizin ümumi sosial-iqtisadi inkişafı da çox müsbətdir. Üç ayın göstəriciləri bizi çox sevindirir. İndi bir neçə gündən sonra dörd ayın yekunları da veriləcək. Əminəm ki, biz dinamikanı nəinki saxlayacağıq, həm də artıracağıq. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Sosial məsələlərin həllinə gəldikdə, bu günə qədər bir çox sosialyönümlü layihələr həyata keçirilibdir. Bu layihələrin həyata keçirilməsi davam etdiriləcək, eyni zamanda, bütün sosial sahədə tam şəffaflıq yaradılmalıdır. Bu, yeni dövrün tələbidir. Əvvəlki dövrlərdə də mən qarşıya bu vəzifəni qoymuşam və bu gün bir daha çox ciddi tapşırıq verirəm ki, sosial sahədə maksimum şəffaflıq təmin edilməlidir. Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulub. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Ancaq bununla bərabər, sosial məsələlərin həllinə çox böyük diqqət göstəririk. Bunun nəticəsində ölkəmiz uğurla inkişaf edir. Bunun nəticəsində ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür, xalq-iqtidar birliyi gündən-günə möhkəmlənir. Bu gün Azərbaycan inkişaf, sabitlik, xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilibdir.”



Sonra “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verib. Sonra Prezident İlham Əliyev Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Layihə çərçivəsində Xızı Sukanal İdarəsi üçün müasir tipli inzibati bina inşa olunub. Binanın foyesində Ulu Öndərin büstü qoyulub. Burada müştəri xidmətləri və istehsalat şöbəsi fəaliyyət göstərəcək. Binada, həmçinin texnoloq, mühəndis, mühasibat otaqları, arxiv, anbar da yaradılıb. Binadakı iclas zalında qurumun fəaliyyəti ilə bağlı müxtəlif toplantılar keçirmək mümkündür. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xızı rayonuna səfəri çərçivəsində başlanğıcını Giləzi-Xızı yolunun 34-cü kilometrliyindən götürən və əsaslı şəkildə yenidən qurulan Fındığan kəndinədək olan yolun açılışını edib. Son illərdə Azərbaycanda əsas magistral yollarla yanaşı, kənd yollarının salınması, mövcudlarının isə müasir səviyyədə yenidən qurulması ilə bağlı layihələr geniş vüsət alıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov əsaslı şəkildə yenidən qurulan yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bu yolun tikintisi Prezident İlham Əliyevin 2018-ci ilin fevralında imzaladığı Sərəncama əsasən həyata keçirilib. 600 nəfər əhalinin yaşadığı Fındığan kəndini Giləzi-Xızı avtomagistralının 34-cü kilometrliyi ilə birləşdirən yolun ümumi uzunluğu 5 kilometrdir. Yol 4-cü texniki dərəcəyə aiddir. Hərəkət hissəsinin eni 6 metr olan yol ikizolaqlıdır. Yolun yenidən qurulması zamanı genişmiqyaslı torpaq və asfalt-beton işləri görülüb. Yol boyunca 226 metr müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib. Bu yolun istifadəyə verilməsi Fındığan kənd sakinlərinin Giləzi-Xızı avtomobil yoluna və Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomagistralına çıxışını təmin edir. Bu yolun yenidən qurulması bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır.

Sonra dövlətimizin başçısına tikintisi başa çatmış Xızı-Altıağac avtomobil yolunda görülmüş işlər barədə məlumat verildi. Qeyd olundu ki, uzunluğu 20,8 kilometr olan üçüncü dərəcəli bu yol hər birinin eni 3,5 metr olmaqla 2 hərəkət zolağından ibarətdir. Yolboyu 1 körpü keçidi təmir olunub, müxtəlif diametrli 48 ədəd su ötürücü boru, 14 kilometrə yaxın açıq və qapalı su ötürücü kanal tikilib. Xızı-Altıağac avtomobil yolunun istifadəyə verilməsi nəticəsində sakinlərin gediş-gəlişində, xüsusən də payız-qış mövsümündə yaranan çətinliklər tamamilə aradan qalxıb. Bu yol rayonda dörd min nəfər əhalinin yaşadığı 11 məntəqəni birləşdirir.

Daha sonra Prezident İlham Əliyevə Bakı-Quba Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 56-cı kilometrliyindən ayrılan Yeni Yaşma kənd yolunda aparılmış əsaslı təmir işləri barədə məlumat verildi. Bu avtomobil yolu uzun illər əsaslı təmir olunmadan istismar edildiyindən tamamilə yararsız hala düşmüşdü. Nəqliyyat vasitələrinin normal hərəkəti üçün çətinliklər yarandığından, yolun əsaslı təmir olunmasına zərurət yaranmışdır. Uzunluğu 6 kilometr olan bu yol dövlətimizin başçısının tapşırığı ilə əsaslı şəkildə təmir edilib, bütün infrastruktur müasir tələblər səviyyəsində qurulub. Bu yol 2200 nəfər əhalinin yaşadığı Yeni Yaşma kəndini Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yoluna birləşdirməklə yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Dövlətimizin başçısı Fındığan kənd yolunun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

# Məktəblilər arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən "Ən yaxşı təqdimat" müsabiqəsi başa çatıb













***Məktəblilər arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən "Ən yaxşı təqdimat" müsabiqəsi başa çatıb. AZƏRTAC xəbər verir ki, mayın 4-də Heydər Əliyev Mərkəzində müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.***

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad olunub, məzarı üstünə gül dəstələri düzülüb. Dövlət qurumlarının nümayəndələrinin, Milli Məclisin deputatlarının, ali məktəb rektorlarının, təhsil işçilərinin, şagirdlərin iştirak etdikləri tədbir Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Mərasimdə çıxış edən təhsil naziri Ceyhun Bayramov ulu öndər Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, Ümummilli Liderin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini vurğulayıb. Nazir dövlətimizin başçısının apardığı müdrik və məqsədyönlü siyasət nəticəsində Azərbaycanın dinamik inkişaf etdiyini söyləyib.

Təhsil sahəsində səmərəli proqram və layihələr həyata keçirildiyini qeyd edən C.Bayramov Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq reallaşdırılan tədbirlərdən danışıb.

Nazir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təhsilə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. Təhsil sahəsində həyata keçirilən layihələr sayəsində tədris ocaqlarının maddi-texniki bazalarının daha da möhkəmləndirildiyini xatırladan C.Bayramov təhsildə qazanılan uğurları, qarşıda duran vəzifələri diqqətə çatdırıb.

Nazir məktəblilər arasında təşkil olunan müsabiqənin əhəmiyyətini vurğulayıb, şagirdlərə gələcək həyatlarında uğurlar arzulayıb.

Məlumat verilib ki, ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsi Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Təhsil, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqları Respublika Komitəsi tərəfindən birgə təşkil olunub. Müsabiqənin nəticələrinə əsasən, 8 nəfər birinci, 14 nəfər ikinci, 18 nəfər üçüncü dərəcəli diploma, 25 nəfər isə tərifnaməyə layiq görülüb.

***Ardı Səh. 7***

# Məktəblilər arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən "Ən yaxşı təqdimat" müsabiqəsi başa çatıb






Əvvəli-Səh-6

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətlərindən danışıb. Qeyd edib ki, Ulu Öndərin zəngin irsinin dərindən öyrənilməsi olduqca önəmlidir.

Ölkəmizdə uğurlu təhsil islahatlarının aparıldığını bildirən Əli Əhmədov Prezident İlham Əliyevin bu sahəyə böyük əhəmiyyət verdiyini xatırladıb. "Bu gün Azərbaycan təhsilinin qarşısında geniş vəzifələr durur", - deyən Baş nazirin müavini bildirib ki, təhsil Azərbaycanın inkişafının ən fundamental əsaslarından biri kimi dəyərləndirilir. O əlavə edib ki, hər bir ölkə öz inkişafında təhsilə borcludur.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov da müsabiqənin əhəmiyyətini vurğulayıb. Müsabiqənin təşkilatçılarından olan Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən danışan Anar Ələkbərov bildirib ki, Fond ölkəmizin tərəqqisi və xalqımızın rifahına xidmət edən genişmiqyaslı layihələr həyata keçirərək ümummilli lider Heydər Əliyevin ideyalarını davam etdirir.

"Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşan konkret layihələrlə, əməli işlərlə Fond bütün xalqımızın hörmət və etibarını qazanmağa nail olub. Biz, eyni zamanda, öz humanitar fəaliyyətimizlə beynəlxalq ictimaiyyətin rəğbətini qazanan ölkənin ən böyük qeyri-hökumət təşkilatı kimi Azərbaycanı dünyada layiqincə təmsil edirik. Bütün bu çoxşaxəli fəaliyyətin təməlində ulu öndər Heydər Əliyevin ideyaları və bu ideyalara xidmət amalı dayanır. Bugünkü müsabiqə onu göstərir ki, Azərbaycan gəncliyi ümummilli lider Heydər Əliyevin xalqımızın qarşısındakı misilsiz xidmətlərini, onun müəllifi olduğu dövlət quruculuğu konsepsiyasını dərindən öyrənməyə böyük maraq göstərir. Bu da Azərbaycanın gələcəyinin etibarlı əllərdə olduğunu göstərir", - deyə Anar Ələkbərov qeyd edib.

Anar Ələkbərov bildirib ki, Heydər Əliyev Fondu təhsil sahəsinə hər zaman xüsusi diqqət ayırıb. Fondun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu sahəyə verdiyi önəmin bariz nümunəsi kimi ölkənin hər yerində, ən ucqar kəndlərdə belə yeni məktəb binalarının tikintisini və həyata keçirilən digər layihələri misal göstərmək olar.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə çıxış edərək ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən danışıb. Nazir bildirib ki, müasir müstəqil Azərbaycanın banisi olan Heydər Əliyev tarixin çətin vaxtlarında hakimiyyətə gələrək xalqımız qarşısında böyük xidmətlər göstərib, ölkəmizi parçalanmaqdan xilas edib. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi vaxtda Azərbaycanın inkişafı və dünyada tanıdılması istiqamətində mühüm addımlar atıb. Bütün sahələrə diqqətini əsirgəməyən Ümummilli Lider hər zaman təhsil sahəsinə xüsusi həssaslıqla yanaşıb. Bu gün də Azərbaycan təhsili Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub.




Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqları Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ümummilli lider Heydər Əliyevin doğma Vətən və xalq qarşısındakı müstəsna xidmətlərindən danışıb. O, Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda təhsilin, elmin inkişafı istiqamətində görülən işlərin önəmindən də bəhs edib. S.Möhbalıyev müsabiqənin əhəmiyyətini vurğulayıb, qalibləri təbrik edib. Sonra müsabiqənin qaliblərinə mükafatlar təqdim olunub.



# Heydər Əliyevin İslam həmrəyliyi ideyası

***Ulu öndər Heydər Əliyev bəşəri dəyərlərdən səmərəli istifadə etməklə cəmiyyətdə mənəvi birliyin yaradılmasında İslam həmrəyliyi ideyasının mühüm rol oynadığına xüsusi önəm verirdi. Heydər Əliyev irsinə əsaslanaraq İslam həmrəyliyi ideyasını məkan, zaman və struktur baxımdan aşağıdakı mərhələlərə bölmək olar:***

**1.** Ölkədaxili vətəndaş həmrəyliyinə nail olmaq.

**2.** Ölkədaxilində dini təriqətlər və dinlərarası münasibətlərin tənzimlənməsi.

**3.** İslam ölkələri arasında həmrəyliyin möhkəmləndirilməsi.

**4.** İslam həmrəyliyindən bəşəri həmrəyliyə doğru.

Ulu öndər ümumi islam birliyinə nail olmaq üçün əvvəlcə ölkə daxilində vətəndaş həmrəyliyini bərqərar etməyi nəzərdə tuturdu. Çünki o, yaxşı bilirdi ki, ümumi islam birliyinin formalaşması üçün ayrı-ayrı ölkələrdə milli-mənəvi, dini-etnik həmrəyliyə nail olmaq əsas şərtlərdən biridir. Həmrəylik ideyasının sosial-fəlsəfi mahiyyətini yaxşı dərk edən Heydər Əliyev özünün dövlətçilik fəaliyyətində həmişə bu məsələyə diqqət yetirmişdir.

1.Ölkədaxili vətəndaş həmrəyliyinə nail olmaq. Ölkədaxili həmrəylik-dedikdə burada dinindən, milliyyətindən, irqindən asılı olmayaraq bütün vətəndaşların həmrəyliyinin bərqərar olması başa düşülür. Ayrı-ayrılıqda götürülmüş ölkələrdə həmrəyliyin, birliyin bərqərar olması həmin ölkələrdə sülh, əmin-amanlıq, sabitlik və birgəyaşayışın əsas təminatıdır.

90-cı illərin əvvəllərində müharibə şəraitində yaşayan Azərbaycanın ağır günlərində Azərbaycana rəhbərlik edən Heydər Əliyev ölkə vətəndaşlarının birliyinə, həmrəyliyinə nail olmaq üçün idarəetmənin fəlsəfəsi və özünün dövlətçilik təcrübəsindən məharətlə istifadə etmişdir. Ulu öndər yaxşı bilirdi ki, yenicə müstəqillik qazanmış bir ölkənin öz müstəqilliyini saxlaması, möhkəmlənməsi və sonrakı inkişafı həmin ölkənin vətəndaşlarının birliyi və həmrəyliyindən asılıdır. Buna görə də ölkə vətəndaşlarının həmrəyliyinin əhəmiyyətini yüksək qiymətləndirən Heydər Əliyev sadə insanlar ilə görüşlərində onları birliyə və həmrəyliyə çağıraraq demişdir: Bizim dövlətimiz, ölkəmiz öz milli, mənəvi, dini dayaqlar üzərində qurulub və bundan sonra da yaşayacaqdır. Amma bunların hamısını təmin etmək üçün gərək hər bir vətəndaşımız öz vətəndaşlıq borcunu yerinə yetirsin, öz vətəndaşlıq borcunu, məsuliyyətini dərk etsin. Əgər hər bir vətəndaş, hər bir azərbaycanlı dərk edə bilsə ki, müstəqil Azərbaycanın yaşaması, qalib gəlməsi və gələcəyə uğurla getməsi onun kiçik fəaliyyətindən də asılıdır, o bunu edəcəkdir. Sizin də, bizim də borcumuz ondan ibarətdir ki, hər bir vətəndaşı-gəncləri də, yaşlı adamları da, sizin kimi müdrik ağsaqqalları da, dindarları da-hamını agah edək ki, bu ağır dövrümüzdə hər bir vətəndaşın, hər bir azərbaycanlının mövqeyindən, fəaliyyətindən, cəmiyyətə göstərdiyi xidmətdən dövlətimizin, cəmiyyətimizin



müqəddəratı, bu günü və gələcəyi asılıdır".

Ölkəmizin daxilində həmrəyliyə, birliyə nail olmaq üçün xalqımıza müraciət edən uzaqgörən Heydər Əliyev müstəqil Azərbaycanın inkişafına, torpaqlarımızın erməni işğalından azad edilməsinə inanırdı. Ümumiyyətlə, uzaqgörən ümumilli lider xalqımızın dünya xalqları içərisində ləyaqətli səviyyəyə qalxacağını nəzərdə tutaraq demişdir: "Biz nə qədər bir olsaq, bir-birimizin əllərindən nə qədər möhkəm tutsaq, bir-birimizə nə qədər yaxın olsaq, müstəqil Azərbaycanın yaşaması o qədər çox nail olacaq, xalqımız onun başına gələn bugünkü bəlalardan xilas olacaq, torpaqlarımız Ermənistanın işğalından azad olacaq. Azərbaycanda əsrlərdən-əsrlərə keçmiş milli, mənəvi dəyərlərimiz möhkəmlənəcək, daha dərin kök salacaq, inkişaf edəcək və Azərbaycan xalqı dünya xalqları içərisində ləyaqətli səviyyəyə qalxacaqdır".

Ölkədaxili həmrəyliyi qoruyub saxlamaq üçün Ulu öndər islam dinin bəşəri dəyərlərindən istifadə edərək ölkəmizin ümumi inkişafı və birliyi naminə adamlarımızın kinküdurəti, ədavəti kənara qoyaraq bir araya gəlməsini istəyirdi. Belə məqamda ölkə vətəndaşlarının həmrəyliyi naminə Heydər Əliyev peyğəmbərimiz Həzrəti Məhəmmədin tövsiyələrini əsas tutaraq, ümumiyyətlə, islam dininin mütərəqqi dəyərlərinə əsaslanaraq xalqımıza müraciət edərək deyirdi: "Respublikamızda son illər gedən proseslər cürbəcür ziddiyyətlər yaradır. Bəzi adamlarda bir-birinə qarşı kin-küdurət, ədavət, qisasçılıq hissləri yaranıb. Bunların hamısını kənara qoymaq lazımdır. Allah da belə buyurub, Qurani-Kərim də bunu bizdən tələb edir. Dinimizin əsasını qoyan və mənim bu günlərdə məbədini ziyarət etdiyim Həzrəti Məhəmməd peyğəmbər də bizə bu yolu göstərir. Ona görə də mən həm sizə, bütün dindarlara, həm də bütün azərbaycanlılara müraciət edirəm".

2. Ölkədaxilində dini təriqətlər və dinlərarası münasibətlərin tənzimlənməsi. Ölkədaxilində dini sabitlik və birgəyaşayışı təmin etmək üçün multikulturalizm və tolerantlıq ideyası cəmiyyətdə üstünlük təşkil etməli və ölkə vətəndaşlarının gündəlik həyat tərzinə çevrilməlidir. Hamıya məlumdur ki, multikulturalizm və tolerantlıq Azərbaycan vətəndaşlarının həyat tərzinə çevrilmişdir. Hər hansı bir cəmiyyətdə təriqətlərarası münasibətlərin normal olması ölkədaxili sabitliyin bərqərar olmasını şərtləndirir. Məsələn, Azərbaycanda tarixən məzhəblər (sünni, şiə və s) arası münasibətlərdə heç bir vaxt problem olmamışdır. Müstəqillik dövründə isə ölkəmizdə dövlət-din münasibətlərinin düzgün tənzimlənməsi hər bir məzhəb nümayəndələrinin hüquqlarının qorunmasına xidmət etmişdir. Eyni zamanda 2016-cı ilin yanvar ayında Bakı şəhərində Heydər məscidində sünni və şiə məzhəbinə mənsub olan müsəlmanların ilk dəfə olaraq eyni vaxtda birlikdə vəhdət namazı qılmaları dini tolerantlıq nümunəsi kimi dünya müsəlmanlarına bir mesaj olmuşdur.

3. İslam ölkələri arasında həmrəyliyin möhkəmləndirilməsi. Azərbaycanda müxtəlif dinlərin birgə yaşayış şəraitinin nümunəvi xarakter daşıdığını vurğulayan Ulu Öndər bu xüsusiyyətlərin xalqımızın dini dözümlülüyünü göstərən əsas şərt hesab etmişdir. Bir neçə konfessiyalı ölkələrdə ölkədaxili həmrəylik, dini tolerantlıq və dinlərarası münasibətlərin səviyyəsindən asılıdır. Bu səbəbdən Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən ölkəmizdə vətəndaş həmrəyliyinə nail olmaq üçün dini konfessiyaların bir-birinə münasibətlərinin normal olmasına çalışmışdır. Bu baxımdan Ulu öndər dinlərarası münasibətlərin nümunəvi xarakter daşıdığını qeyd edərək demişdir: "Azərbaycanda müxtəlif dinlərin bu cür birliyinin olması müstəsna dərəcədə nümunəvi xarakter daşıyır. Bu, əslində Azərbaycanın reallığını, eyni zamanda Azərbaycan xalqının dini dözümlülüyünü göstərir. Azərbaycanda əhalinin əksəriyyətini islam dininə etiqad edən azərbaycanlılar təşkil edir. Ancaq eyni zamanda Azərbaycanda xristian-pravoslav, yəhudi dininə etiqad edən insanlar, müxtəlif millətlərin nümayəndələri də yaşayırlar. Azərbaycanlılar başqa dinlərə münasibətdə həmişə dözümlü olublar və bunu bizə Quran, Həzrəti-Məhəmməd vəsiyyət edibdir. Amma ən mühüm odur ki, bu xeyirxah, müqəddəs vəsiyyət yerinə yetirilsin. Azərbaycanlıların bu vəsiyyəti müqəddəs tutması xalqımızın çox mühüm keyfiyyəti, xüsusiyyətidir və biz bununla fəxr edə bilərik".

Ölkəmizin inkişafı naminə bütün vətəndaşlarımızın ölkədaxili həmrəyliyinə nail olmaq, vətənimizi erməni düşmənlərindən xilas etmək, ordumuzun möhkəmlənməsi və müdafiə qüdrətinin artması üçün Ulu öndər bütün Azərbaycan xalqına İslam dini ətrafında birləşməyi tövsiyə edərək 1993-cü il 5 sentyabr tarixində Təzəpir məscidində dindarlar qarşısındakı çıxışında demişdir: "Biz bu yolla gedəcəyik. Biz öz islam dinimizi qoruyub saxlayaraq, bizim dinimizə, əxlaqımıza, mənəviyyatımıza təcavüzlərin qarşısını alaraq heç bir başqa millətə, heç bir başqa dinə təcavüz etməyəcəyik. Hər bir millətə mənsub olan insana, hər dinə hörmətlə yanaşmışıq və yanaşacağıq. Bu, Allahın əmridir, bu bizim Ulu peyğəmbərimiz Məhəmməd əleyhissəlamın bizə tövsiyəsidir. Ona görə də Azərbaycan xalqının bu ağır dövrdə birləşməsi İslam dininin böyük mənəvi dəyərlərinə söykənir və ümidvaram ki, bizim dindarlarımız, bizim din aləmində fəaliyyət göstərən şəxslərimiz Azərbaycanın bütün vətəndaşları İslamın buyurduğu yolla gedərək Vətəni qorumaq əzmi, qəhrəmanlıq əzmi, vətənpərvərlik əzmi tərbiyə etməlidirlər".

Burada ölkəmizin ağır durumda olduğu bir vaxtda Heydər Əliyev insanlarda birləşmək və həmrəyliyə nail olmaq kimi islamın tarixi ənənəsini yada salaraq Allahın buyurduğu və Peyğəmbərimizin tövsiyəsini dindarlara xatırlatmaqla keçən əsrdə 90-cı illərin əvvələrində ölkəmizin ağır günlərində vətənimizi işğalçılardan qorumaq və xalqımızda vətənpərvərlik və qəhrəmanlıq əzmini gücləndirməyi vurğulamışdır.

4.İslam həmrəyliyindən bəşəri həmrəyliyə doğru. Qeyd etmək lazımdır ki, Heydər Əliyev 1993-cü il xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəldiyi vaxtdan müsəlman ölkələri arasında əməkdaşlığın və həmrəyliyin möhkəmləndirilməsinə xüsusi diqqət yetirmişdir. Xüsusən İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Dövlət və Hökümət başçılarının 1994-cü il 13 dekabr tarixində Kasablanka (Mərakeş) Zirvə Toplantısında Heydər Əliyevin geniş məzmunlu çıxışı İslam dünyasında həmrəyliyin genişləndirilməsinin zəruri olduğunu bir daha təsdiq etdi. Toplantıdakı çıxışında Heydər Əliyev Müsəlman ölkələrinin başçılarına müraciət edərək islam ölkələri arasında birliyin, həmrəyliyin mühüm əhəmiyyət daşıdığını və Azərbaycanın islam dünyası ilə əməkdaşlığının genişlənməsinin əhəmiyyətini vurğulayaraq demişdir: "Azərbaycan Respublikasının Prezidenti kimi mən öz qardaşlarımla-müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibətlər yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm. Əminəm ki, Mərakeşdəki Zirvə görüşü Azərbaycanın bütün İslam dünyası ilə əməkdaşlığının genişlənməsinə və dərinləşməsinə kömək edəcəkdir".

Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən İslam Konfransı Təşkilatının bir müsəlman ölkəsi kimi Azərbaycana siyasi dəstək göstərdiyini xüsusi qeyd edən Heydər Əliyev bu təşkilatın fəaliyyətini yüksək qiymətləndirmiş və bu təcrübənin davam etdirilməsini zəruri hesab etmişdir: "Öz qətnaməsində Ermənistan Respublikasının müstəqil Azərbaycana qarşı təcavüzünü pisləmiş İslam Konfransı Təşkilatının fəaliyyətini biz yüksək qiymətləndiririk. O bu münaqişənin aradan qaldırılması işində iştirak edən beynəlxalq təşkilatlara müvafiq müraciətlər göndərmişdir. Hesab edirəm ki, belə tədbirləri davam etdirmək lazımdır və çox ümidvarıq ki, İslam Konfransı Təşkilatının hər bir üzvü bu tədbirləri dəstəkləyəcəkdir".

Buradan göründüyü kimi Kasablanka Zirvə görüşündə Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində ölkəmizin düşdüyü ağır vəziyyəti görüş iştirakçılarına çatdırmaqla yanaşı, dünyanın başqa bölgələrində baş verən qırğın və dağıntılara da diqqəti cəlb etmiş və müxtəlif bölgələrdə yaşayan müsəlman və qeyri-müsəlmanların taleyinə biganə qalmamağı nümayəndələrə bəyan etmişdir. Buradan göründüyü kimi Heydər Əliyev bu görüşdə bir müsəlman ölkəsinin başçısı kimi təkcə Azərbaycanın problemlərini yox, eyni zamanda digər bölgələrdə yaşayan müsəlman və qeyri-müsəlmanların da problemlərini həll etmək üçün İslam Konfrans Təşkilatına üzv olan ölkələrin başçılarına müraciət etmişdir.

Ulu öndər Heydər Əliyev "Müasirlik və dini-mədəni dəyərlər" mövzusunda Bakıda keçirilən beynəlxalq konfrans iştirakçılarına göndərdiyi təbrik məktubunda islam həmrəyliyinin möhkəmləndirilməsində bu cür tədbirlərin əhəmiyyətindən bəhs edərək demişdir: "Müsəlman alimləri və din xadimlərinin dinimizin mühüm aktual problemlərini müzakirə etməsi sırf elmi-dini əhəmiyyəti ilə yanaşı, müsəlman dövlətləri və xalqları arasında qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, islam həmrəyliyinin daha da möhkəmlənməsinə xidmət edir. Dünyanın bir çox yerlərində islam dininin əsaslarına, müsəlman ölkələrinə qarşı qərəzli həmlələrin aparıldığı müasir dövrdə bu, xüsusilə böyük əhəmiyyət kəsb edir. Belə görüşlər, həmçinin, müştərək tarixi, mədəni, mənəvi ənənələrə malik olan, oxşar tale və inkişaf yolu keçmiş ölkələrimizin qarşısına çıxan problemlərin həllində bir-birimizin təcrübəsindən səmərəli istifadə etmək imkanlarını genişləndirir.

***Sakit Hüseynov,***
***AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə üzrə elmlər doktoru***

# Mir Cəlal yazılı abidələrlə yad edildi

## “Mir Cəlal” biblioqrafiyası

***Mədəniyyət naziri, fəlsəfə üzrə fəlsəfə doktoru Əbülfəs Qarayevin layihəsi əsasında M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından nəsrimizin görkəmli nümayəndəsi, əməkdar elm xadimi, yazıçı-alim, ədəbiyyatşünas, professor Mir Cəlal Paşayevə həsr edilmiş “Mir Cəlal” (Paşayev Mir Cəlal Əli oğlu) biblioqrafiyasını hazırlayaraq, nəfis şəkildə çap etmişdir.***

Qeyd edək ki, Mir Cəlal haqqında ilk biblioqrafiya 1968-ci ildə MEA-nın Mərkəzi-Elmi Kitabxanası tərəfindən (tərt. ed. N.M.Teymurova, red. M.M.Həsənova və İ.H.Səfərov) nəşr edilmişdir. 1998-ci ildə Milli Kitabxana tərəfindən ədibin anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq 2-ci biblioqrafik göstərici (tərt. ed.R.Q.Muradova; red. N.P.Nağıyeva), 2006-cı ildə daha təkmilləşdirilmiş şəkildə 3-cü biblioqrafik göstərici (tərt.-müəl. N.P.Nağıyeva elmi red. Ş.Ə.Axundov. ixt. red. K.M.Tahirov, red. M.Ə.Vəliyeva) tərtib edilmişdir.

Son 12 il ərzində görkəmli nasir haqqında kifayət qədər əlavə materialların çap olunduğunu nəzərə alan Azərbaycan Milli Kitabxanası, ədibin anadan olmasının 110 illiyi ilə əlaqədar olaraq, daha fundamental biblioqrafiya hazırlayaraq çap etmişdir. Bu yeni biblioqrafik göstəriciyə son 12 il ərzində nasirin həyat və yaradıcılığı haqqında işıq üzü görən materiallar daxil edilmiş, habelə, buna uyğun olaraq yeni bölmə və yarımbölmələr yaradılmışdır. Beş hissədən ibarət olan biblioqrafiyada Mir Cəlalın kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap edilmiş əsərləri, uşaqlar üçün işlədiyi kitablar, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, redaktə etdiyi kitablar, rəhbərlik etdiyi dissertasiyalar, rus və digər dillərdə nəşr olunmuş əsərləri, eyni zamanda, ədibin həyat və yaradıcılığını əks etdirən bütün nəşrlər öz əksini tapmışdır.




Biblioqrafiyada, həmçinin, Mir Cəlalın həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxslərin və qələm dostlarının onun haqqında fikirləri, nasirin müdrik kəlamları, ədibin görkəmli şəxslər və ədəbiyyatımız haqqında fikirləri, Elçinin Mir Cəlal haqqında fikirləri də verilmişdir.

Biblioqrafik göstəricidə ədəbiyyat xronoloji ardıcıllıqla qruplaşdırılmış, xronoloji çərçivə daxilində isə əlifba qaydası gözlənilmişdir. Biblioqrafiyada, ilk dəfə olaraq verilmiş “Mir Cəlalın əsərləri dünya kitabxanalarında” bölməsində toplanan sənədlər ölməz yazıçının irsinin bütün dünyada geniş yayılmasının sübutudur. “Əlavələr” bölməsində toplanan Mir Cəlal Paşayevin Bakı şəhərində yerləşən “Ədibin evi” və Gəncə şəhərində yerləşən ev-muzeyində mühafizə olunan arxiv materiallarının da əhatə olunması biblioqrafiyanın əhəmiyyətini artırır.

“Mir Cəlal” biblioqrafiyasında yer alan “Mir Cəlalın əsərləri dünya kitabxanalarında” bölməsində tanınmış nasirin irsinin Rusiya, Fransa, İspaniya, Ukrayna, Bolqarıstan, Avstraliya, Böyük Britaniya, Türkiyə, Almaniya, Estoniya və digər ölkələrin milli kitabxanalarında toplandığı göstərilmişdir. Biblioqrafik göstəricinin IV hissəsində isə nasirin əsərlərinin dünyanın bir sıra ölkələrinin dillərinə, o cümlədən, alman, belarus, bolqar, çex, eston, fars, gürcü, rumın, tacik, tatar, türk, ingilis və digər dillərə tərcümə edildiyi göstərilmişdir. Yazıçının rus dilində çap olunan əsərlərinin çoxluğu nəzərə alınaraq, həmin materiallar “Başqa dillərdə” bölməsindən ayrılaraq ayrıca bölmədə verilmişdir. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə biblioqrafiyanın sonunda zəngin məlumat aparatı-köməkçi göstəricilər verilmişdir. Buraya ədibin əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri, tərcümə etdiyi, redaktoru və tərtibçisi olduğu, habelə, uşaqlar üçün işlədiyi əsərlərin köməkçi göstəriciləri daxildir. Göstəricinin layihə rəhbəri Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri, fəlsəfə üzrə fəlsəfə doktoru Əbülfəs Qarayev, tərtib edənlər Mədinə Vəliyeva və Mətanət İbrahimova, elmi redaktoru və buraxılışa məsul professor, əməkdar mədəniyyət işçisi Kərim Tahirov, məsləhətçi əməkdar mədəniyyət işçisi Şəmsəddin Axundov, redaktoru əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyevadır. 495 səhifədən ibarət olan biblioqrafiyanı tərtib edərkən görkəmli nasirin Bakı şəhərində yerləşən “Ədibin evi”ndə, Gəncə şəhərində olan ev-muzeyində qorunan arxiv sənədlərindən, Milli Kitabxananın, AMEA-nın Mərkəzi-Elmi Kitabxanasının, BDU-nun, ADPU-nun kitab fondlarından və digər mənbələrdən istifadə edilmişdir.

Biblioqrafiya mütəxəssislər və Mir Cəlal Paşayevin irsini öyrənmək istəyən tədqiqatçılar və digər növ maraqlananlar üçün nəzərdə tutulmuşdur.

***Ədilə Qocayeva,***
***AJB-nin üzvü***

# Yasamal rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş tədbir keçirildi

Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş tədbir keçirildi.Tədbir iştirakçıları əvvəlcə rayon təşkilatının qərargahındakı Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək, Onun əziz xatirəsini böyük ehtiramla bir dəqiqəlik sükutla yad etdilər.

Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov, Yasamal rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov, “İki sahil” qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə, “Səs” qəzetinin Baş redaktoru Bəhruz Quliyev və başqaları iştirak edirdilər. Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov Ulu Öndər Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinə nəzər saldı. Qeyd etdi ki, Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, suveren bir ölkə kimi qarşılaşa biləcəyi problemlərin həllinə nail olması üçün real əsaslar hələ Ulu Öndərin sovet hakimiyyəti illərində respublikamıza rəhbərliyi dövründə formalaşdırılıb: “Ulu Öndər Heydər Əliyevin Azərbaycanın sosial, iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər və milli şüurun oyanması istiqamətində gördüyü işlər ölkəmizin adını seçilən respublikalar sırasına daxil etmişdir. Azərbaycan xalqının Ümummilli Lideri fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət edib, Azərbaycan torpağının, dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb və dövlətçiliyimizin inkişafı üçün mümkün ola bilən hər bir işi görüb”.



Rayon təşkilatı sədri onu da bildirdi ki, məhz Heydər Əliyevin müstəqillik dövründə hakimiyyətə qayıdışı təhlükə altında olan dövlətçiliyimizi xaos və böhran məngənəsindən çıxarmış, vətəndaş müharibəsinin qarşısı alınmış və atəşkəs rejiminin tətbiqinə nail olunmuşdur. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Ulu Öndər Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Bu gün Ümummilli Liderin şah əsəri olan müstəqil Azərbaycanın etibarlı əllərdə olduğunu vurğulayan T.Əhmədov ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın son 15 il ərzində müstəqilliyini daha da möhkəmləndirdiyini, sosial-iqtisadi, siyasi-diplomatik və hərbi quruculuq sahələrində çox böyük uğurlara imza atdığını bildirdi. Bütün bunların nəticəsidir ki, növbəti dəfə aprelin 11-də keçirilən prezident seçkilərində Ümummilli Lider Heydər Əliyev siyasətinin layiqli davamçısı Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev mütləq qələbə qazandı.



Tədbirdə çıxış edən Yasamal rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqillik yolunda ilk qədəmlərini atan Azərbaycanın ən mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik məsuliyyətini üzərinə götürərək, xilaskarlıq və quruculuq missiyasını böyük şərəflə yerinə yetirdiyini bildirdi. Qeyd etdi ki, Ulu Öndər Heydər Əliyev, sözün əsl mənasında, müstəqil Azərbaycan dövlətinin inkişafının bütün istiqamətlər üzrə əsaslarını formalaşdırdı: “Ən əsası isə, Azərbaycanın dövlət müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin edən mükəmməl milli dövlətçilik ideologiyasını formalaşdırdı və Cənab İlham Əliyevin şəxsində bu ideologiyanı, Azərbaycanın sosial-iqtisadi və siyasi-mədəni tərəqqisini uğurla həyata keçirə biləcək ən layiqli varisini yetişdirdi”. Sonra partiya həyatında yaxından iştirak edən bir qrup partiya fəalına YAP Yasamal rayon təşkilatının Fəxri Fərmanları və diplomları təqdim olundu. Tədbir ədəbi-bədii kompozisiya ilə davam etdirildi. Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olundu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan Xalq Cümhuriyyəti - 100

## *Cümhuriyyət dövrünün fədakar qadını*

***XX əsrin ikinci onilliyi Azərbaycan tarixində dərin izlər buraxıb. 1918-ci ilin birinci yarısında baş vermiş tarixi hadisələrdən biri faciə, insanlıq əleyhinə cinayət, soyqırımı idisə, digəri qürur və iftixar tariximiz idi. 1918-ci ildə Azərbaycan xalqı həm 31 Mart Soyqırımına məruz qalıb, həm də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətini yaradıb. 1918-ci il mayın 28-də bütün Şərq dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixində şanlı, qürur doğuran səhifələrdəndir. Çox təəssüf ki, az vaxtdan sonra - 1920-ci ilin aprelində bu respublika süqut etdi.***



XX əsrin 90-cı illərinin əvvəlində Azərbaycan keçmiş SSRİ-nin dağılması nəticəsində yaranmış tarixi prosesdən bəhrələnərək, yenidən öz müstəqilliyinə qovuşdu. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə respublikanın siyasi rəhbərliyinə gələn Ümummilli Lider Heydər Əliyev cümhuriyyət ideyalarının yaşamasına və təbliğinə böyük önəm verdi. Təsadüfi deyil ki, respublikamızda hər il Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi təntənə ilə qeyd olunur.

Azərbaycan Xalq Cümhuriyyəti çox gərgin bir zamanda yaransa da, bu yolda mücadilə edən insanlar heç bir hədədən, işgəncədən qoxmayaraq, mübrizəni davam etdirirdilər. Azərbaycanın bəzi fədakar qadınları da qeyri-cinsin nümayəndələri ilə bərabər çalışırdılar. Azərbaycanın ilk qadın pedaqoqu, jurnalist, tərcüməçi və ictimai xadim Mədinə xanım Qiyasbəyli də bu sırada olan mübariz qadınlarımızdan idi. Mədinə Qiyasbəyli (Vəkilova) 1889-cu ilin aprelində Qazax qəzasının Salahlı kəndində dünyaya gəlib. Atası Mehdi ağa Vəkilov yeganə qızı olan Mədinəyə mükəmməl təhsil vermək istəyirdi. Odur ki, Tiflisə aparıb "Müqəddəs Nina" qızlar məktəbinə qoyur. 1904-cü ildə Tiflisdə "Müqəddəs Nina" təhsil müəssisəsini bitirdikdən sonra Mədinə xanım gimnaziyada birillik əlavə kursa daxil olmağı qət edir, onun bu məqsədi atasının ürəyincə olur. Rus dili və ilahiyyat fənlərini "əla" qiymətlərlə başa vuran Mədinə xanım bu attestatla ona "ev müəlliməsi" kimi fəaliyyət göstərə bilərdi.

Aldığı təhsil ona kənddə qızlar üçün ibtidai məktəb açmaq imkanı verir. Lakin kəndin mövhumatçıları tərəfindən qızların məktəbə getməsi fikri yaxşı qarşılanmır. Belə olduqda, Mədinə xanım işə qohum ailələrdən başlayır. Beləliklə, 1906-cı ilin yanvarında Salahlıda kənd yerində İbtidai Qız Məktəbi fəaliyyətə başlamışdı. Məktəbdə türk dili, hesab, rus dili, təbiətşünaslıq fənləri ilə yanaşı, əmək və nəğmə dərsləri də keçirilirdi. O zaman türk dilini Əhməd ağa Gülməmmədov, təbiətşünaslığı-təhsilli meşəbəyi olan atası Mehdi ağa, qalan fənləri isə özü keçirdi. Məktəb tez bir zamanda qəzada məşhurlaşıb nüfuz qazanır və bu təhsil ocağı qəza Maarif İdarəsi tərəfindən rəsmiləşdirilir. Mədinə xanım Salahlı Qız Məktəbinin müdiri və müəllimsi təyin edilir.

Mədinə xanım 20 yaşında Dağkəsəmənli Şəhriyar bəylə ailə həyatı qurur. Şəhriyar bəy Qori Seminariyasını 1890-cı ildə bitirmiş, bir ara müəllimlik eləmişdi. Qazax qəzası rəisi ştab-kapitan Reuttun dəftərxanasında dilmanc işləyirdi. Ziyalı və mədəni bir adam kimi bütün qəzada tanınırdı. Dağ Kəsəmənə-Qiyasbəylilərə gəlin köçən Mədinə xanım orada qızlar üçün məktəb açır, burada eyni işlərini davam etdirir. 1916-cı ilin iyulunda atası Mehdi ağa yaşayıb-işlədiyi Əksiparada qətlə yetirilir. Bu, Mədinə xanımın həyatda yeniyetmə ikən ölən qardaşlarının, sevimli anasının ölümündən sonra aldığı növbəti ağır itki olur. 1917-ci ilin iyununda həyat yoldaşı Şəhriyar vərəm xəstəliyindən vəfat edir. Mədinə xanım çox keçmir ki, maarif cəbhəsinə girməyi qərara alır və qüvvəsini Tiflisdə sınayır. Bir neçə ay Zaqafqaziya Komissarlığında çalışır. Zaqafqaziya üç yerə parçalandıqdan sonra, o da Qazağa qayıdır. Qazax qəzası xalq məktəbləri inspektoru təyin edilən Mədinə xanım qəzada maarif işinin genişləndirilməsi yolunda yerli ziyalılarla çiyin-çiyinə bir ilə yaxın var qüvvəsini əsirgəmədən çalışır. Mədinə xanımın siyasi məsələlərlə yaxından maraqlanması bu dövrə təsadüf edir. Bir əyalət ziyalısı kimi Qafqazda və Rusiyada gedən prosesləri bacardığı qədər izləyir. Siyasi görüşləri etibarilə milliyyətçi bir adam olan Mədinə xanım Azərbaycanın istiqlalının qızğın tərəfdarı idi. 1919-cu ildə Qafqazın türk ziyalı elitasının Bakıya cəmləşməkdə olduğu bir dövrdə uşaqlarını da götürüb bu şəhərə gəlir. Qohumu Gövhər xanım Usubova ilə əl-ələ verərək, paytaxtın mədəni həyatına qoşulur. Gövhər xanım yaşadığı Nikolayevsk küçəsi-5 ünvanda türklər üçün savad kursu açmışdı. Bura 80 nəfərə yaxın qadın-qız cəlb olunmuşdu. Hüseyn Cavid, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Xudaverdi Kələntərli, Səriyyə Əhmədova, Nəimə Qaziyeva bu kursda tədris işində idilər. Mədinə xanım bu təşəbbüsdən nümunə götürərək, mənzilində 1920-ci ilin martında belə bir axşam kursu təşkil edir və martın 10-da onun rəsmiləşdirilməsinə nail olur. Mədinə xanım axşam kursunun müəllimsi təyin edilir. Qısa bir müddət ərzində bura savadlanmaq arzusunda olan 20 nəfərə yaxın qadın cəlb edə bilir. Kursda Üzeyir Hacıbəyov, Xədicə xanım Ağayeva və Şəfiqə xanım Əfəndizadə dərs deyirdilər.

Onun həyatını əks etdirən materiallarda göstərilir ki, Mədinə və Gövhər millət üçün bu faydalı təşəbbüslərində nə qədər maneələri dəf etməli olurdular. Qəfildən çevriliş baş verir, Milli Hökumət devrilir, Sovet hakimiyyəti elan edilir. 1920-ci il dekabrın 20-də Mədinə xanım Qiyasbəyli Darülmüəllimatın müdirəsi və müəllimsi, əri yeni hökumət tərəfindən Nargində güllələndikdən sonra dul qalmış Gövhər xanım Usubova isə onun müavini təyin edilir. Bu təhsil ocağında Azərbaycanın hər yerində açılmalı olan qız məktəbləri üçün müəllimələr hazırlanacaqdı. Zarafat deyildi, bütün Şərqdə ilk dəfə, məhz Bakıda-Azərbaycanda qızların öz dilində ali təhsil almaq imkanlarının təməli qoyulurdu. Bu təməl daşlarını qoymaq Mədinə xanımın taleyinə yazılmışdı. Mədinə xanım buraya tanınmış qadın pedaqoqlardan Şəfiqə xanım Əfəndizadə, Xədicə xanım Ağayeva, Sara xanım Talışinskaya, Badusəba xanım Köçərli və Fatma xanım Topçubaşovanı cəlb edir.

Darülmüəlliamatda, eyni zamanda, digər türk və müsəlman cümhuriyyətlərindən qızlar gəlib təhsil alırdılar. Məktəbin şöhrəti Azərbaycanın hüdudlarınadan uzaqlara yayılır. 1926-cı ilin sentyabrında Mədinə xanımı köhnə ziyalı nəslinə mənsub olduğuna görə müdirəlikdən götürürlər. Onun yerinə partiyaçı Mina xanım Mirzəyeva təyin edilir. Ancaq Mədinə xanım rus dili müəllimsi kimi seminariyada qalır. Məktəbin adı dəyişdirilib "Pedaqoji Texnikum" qoyulur. 1928-ci ildə onu texnikumun binasındakı otaqlarından çıxarıb, Proletar küçəsindəki ikiotaqlı mənzilə köçürürlər.

1932-ci ilin noyabrında tramvaydan düşərkən yıxılır, onurğa sütunundan ağır zədə alır. Tramvay qəzasından sonra məktəblərə gedib-gəlməyi çətinləşir. Müəllimlik peşəsindən ayrılaraq, tərcüməçiliklə məşğul olur. Səməd Vurğunun vasitəsi ilə o çağın tanınmış rus şairlərindən N.Aseyev, V.Luqovskoy ilə yaxından tanış olmuşdu. Azərbaycan yazıçılarının ən yaxşı əsərlərinin rus dilinə tərcümə olunmasında onlara böyük köməyi dəymişdi. Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Nigar Rəfibəylinin bir çox şeirləri, M.S.Ordubadinin "Dumanlı Təbriz", Əbülhəsənin "Yoxuşlar" romanları rus oxucusuna Mədinə xanımın qələmi ilə çatdırılır: "Yevgeni Onegin"in çevrilməsində rus dilinin incəliklərinə vararkən, çətinliklərlə üzləşən Səməd Vurğunun ən yaxın məsləhətçisi Mədinə xanım idi. Mədinə xanım barəsində MTN arxivində saxlanılan və 1933-cü ildə tərtiblənmiş 16548 saylı formulyardakı xüsusi materiallardan anlaşılır ki, o, hələ 1925-ci ildə Azərbaycan DSİ və XDİK orqanları tərəfindən qeydiyyata alınmışdı və həbs ediləndək, gücləndirilmiş agentura ilə əhatə edilmişdi. Bu dövrdə hər bir addımı ciddi müşahidə altında olmuşdu.

1936-cı ilin soyuq bir qış günü dekabrın 8-də həbs edilir və 8 sentyabr 1937-ci ilədək 12 dəfə dindirilir. Heç bir əsas, dəlil-sübut olmadan, böhtan atılaraq, 45 yaşında olan Mədinə xanım Qiyasbəyli 1937-ci il sentyabrın 28-də güllələnmişdir. Mədinə Qiyasbəyli haqqında çıxarılmış hökm 1956-cı ildə Azərbaycan Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası tərəfindən ləğv edilərək, ona bəraət verilir.

Bəli, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. Bu şərəfli tariximizin qeyd edilməsi, onun gənc nəslə təbliğ olunması məqsədilə, artıq uzun illərdir ki, xüsusilə, müstəqillik illərindən sonra məqsədyönlü addımlar atılır və ciddi işlər görülür. Bu gün belə insanların həyatı və keçdiyi böyük yol gənclərə bir nümunə olaraq təqdim olunur. Xalqımızın yetişdirdiyi belə xanımlar əməyi və qətiyyəti iradəsi ilə yaddaşlarda əbədi həkk olunublar.

***Zümrüd BAYRAMOVA***

# YAP Səbail rayon təşkilatında Ümummilli Liderin 95 illiyi qeyd olunub

***Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatında Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycanın qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi qeyd olunub.***



SİA-nın verdiyi məlumata görə, tədbirdə Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev, Milli Məclisin deputatı, millət vəkili, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri prof. Eldar İbrahimov, Milli Məclisin deputatı, Əməkdar jurnalist, yazıçı Aqil Abbas, Milli Məclisin deputatı akademik Gövhər Baxşəliyeva, Milli Məclisin deputatı, tanınmış yazıçı-publisist Elmira xanım Axundova, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin 1-ci müavini, yazıçı-publisist Səyyad Salahlı, "SƏS" Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev, eləcə də rayon ictimaiyyətinin nümayəndələri, idarə və təşkilatların əməkdaşları, elm və mədəniyyət xadimləri, təhsil işçiləri, veteranlar, rayon partiya təşkilatının İdarə Heyətinin üzvləri, gənclər, tələbələr və çoxsaylı qonaqlar iştirak ediblər.

İlk öncə, müstəqil Azərbaycanın ən yeni siyasi tarixində müstəsna yeri olan görkəmli dövlət xadimi Ulu Öndər Heydər Əliyevin şərəfli və zəngin həyat yoluna və xalqımız üçün ən taleyüklü məqamlarda yerinə yetirdiyi əzəmətli fəaliyyətinə həsr olunan videofilm nümayiş etdirilib.

Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev tarixə qısa ekskurs formatında məruzə ilə çıxış etdi və dahi siyasətçi, görkəmli dövlət xadimi və böyük şəxsiyyət olan Heydər Əliyevin şərəfli həyat yolunun müxtəlif mərhələlərini müasir dövrümüzlə müqayisəli paralellər gətirməklə təhlil edib. Qeyd olunub ki, bütün bəşər tarixində yalnız seçilmiş insanlara nəsib olan xilaskarlıq missiyasını yerinə yetirmiş Heydər Əliyev dühasının nəhəngliyi, əzəməti, böyüklüyü illər keçdikcə daha çox nəzərə çarpır: "1969-cu ildə Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev məhz müstəsna rəhbərlik və liderlik qabiliyyətləri sayəsində 15 respublika arasında sosial-iqtisadi inkişafı və həyat səviyyəsini əks etdirən əsas göstəricilərə görə sonuncu yerlərdən birində dayanan Azərbaycanı qısa müddət ərzində qabaqcıl mövqelərə və özünü tam təmin edən üç respublikadan biri olmaq səviyyəsinə yüksəltdi. Biz bu gün böyük qürur hissi ilə qeyd edirik ki, 1978-ci ildə Azərbaycan SSRİ Konstitusiyasının qəbul olunması, bu Konstitusiyada Azərbaycan dilinin dövlət dili elan olunması, 1969-1982-ci illərdə Azərbaycan üçün mühüm strateji əhəmiyyət daşıyan bir çox inkişaf istiqamətlərinin əsasının qoyulması və Azərbaycanın sözün əsl mənasında tərəqqi dövrünü yaşaması məhz əvəzolunmaz və müdrik dövlət xadimi kimi Heydər Əliyevin adı ilə bağlıdır".

Millət vəkili, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, iqtisad elmləri doktoru Eldar İbrahimov bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində yeri və rolu uzun müddət müzakirə ediləcək: "Çünki Heydər Əliyevin xalqımız qarşısında xidmətləri o qədər böyük və zəngindir ki, bu, zaman-zaman tədqiqatlar mövzusu olacaq. Ümummilli Liderimizin fəaliyyəti Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyətdir. Ulu Öndərimiz keçmişə istinad edərək bu günümüzü necə qurmağı və gələcəyimiz üçün hansı işlər görülməsinin nümunəsini bizə göstərdi. Hesab edirəm ki, bu, hər bir millətin inkişafında əsas şərtlərdən biridir. Yəni Ümummilli Liderimiz düzgün seçimin yolunu göstərdi ki, ölkəmizin və xalqımızın inkişafı, tərəqqisi üçün hansı mərhələlərdən keçməyimiz vacibdir. Heydər Əliyevin bu günə hesablanmış fəaliyyəti hər birimizin gözü qarşısında baş verib. Yaxın tariximizə nəzər salsaq, bu tarixə münasibətin özünü də aydın şəkildə dərk edirik".

Milli Məclisin deputatı, filologiya elmləri doktoru Gövhər Baxşəliyeva da müasir Azərbaycanın banisi və qurucusu Ulu Öndər Heydər Əliyevin xalqımızın tarixi inkişafındakı müstəsna xidmətlərindən söz açıb. Bildirib ki, respublikanın ən çətin vaxtında xalqın tələbi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev qısa müddətdə ölkədə ictimai asayişin bərpasına nail olub. O dahi rəhbərin xalqda gələcəyə böyük inam yaratdığını, qısa zamanda ölkəmizdə yüksək iqtisadi inkişafın əsasını qoyduğunu, Azərbaycanı regionda lider dövlətə çevirdiyini qeyd edib.



G.Baxşəliyeva hazırda Ulu Öndərin siyasətinin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini söyləyib. Azərbaycanda həyata keçirilən nəhəng quruculuq işlərinin, gündən-günə güclənən iqtisadiyyatımızın, sürətlə abadlaşan, inkişaf edən şəhər və rayonlarımızın, mədəniyyətə, elmə, səhiyyəyə göstərilən əvəzsiz qayğının bunun əyani təsdiqi olduğunu bildirib.

Milli Məclisin deputatı, Əməkdar jurnalist, yazıçı Aqil Abbas deyib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın inkişafında, dövlətçiliyimizin möhkəmləndirilməsində, milli mənəvi dəyərlərimizin qorunub saxlanmasında misilsiz xidmətlər göstərib: "Heydər Əliyev - bu möhtəşəm və əzəmətli şəxsiyyət ən böyük azərbaycanlı olaraq yalnız dövlət idarəçiliyini, ordumuzun, təhsilimizin, mədəniyyətimizin, səhiyyəmizin, şəhər və kəndlərimizin, sənayemizin deyil, bütövlükdə yeni və müasir dövlətimizin qurucusu və həm də əhalinin təhlükəsiz yaşamasının etibarlı təminatçısı kimi tariximizdə əbədiyaşarlıq qazanıb".

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, filologiya elmləri namizədi, yazıçı-publisist Səyyad Salahlı qeyd edib ki, fəaliyyətinin bütün dövrünü Azərbaycan xalqı və dövlətinə həsr edən Ümummilli Lider Heydər Əliyev xalqımız qarşısındakı ali missiyasını davam etdirərək ölkəni tənəzzüldən xilas etməklə dirçəliş və tərəqqi yoluna çıxardı. Bu, Azərbaycan tarixində, sözün əsl mənasında, dönüş nöqtəsi oldu. Beləliklə, müasir Azərbaycanın sürətli inkişafının əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyuldu. Uu Öndərin rəhbərliyi ilə həyata keçirilən islahatlar sayəsində əldə edilmiş nailiyyətlər Azərbaycanın müstəqil siyasət yürüdərək yeni inkişaf mərhələsinə qədəm qoymasını şərtləndirdi".

Milli Məclisin deputatı Elmira Axundova deyib ki, o zamanlar ölkədə xaos, hərc-mərclik baş alıb gedirdi: "Bu vəziyyətdə hakimiyyətə gələn Heydər Əliyev yeni bir dövlət yaratdı, ölkəyə yeni bir nəfəs gətirdi. Ölkədə əmin-amanlıq yaratdı, ordu quruculuğuna start verildi, iqtisadiyyat dirçəldi. Əsas göstəricilərdən biri isə Azərbaycanın tədricən dünya dövlətləri arasında tanınması oldu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dünyaya çatdırılması prosesinə başlandı. Heydər Əliyevin Azərbaycan üçün etdiklərini, xidmətlərini saymaqla qurtarmaz. Heydər Əliyev Azərbaycana yeni milli ruh, azərbaycançılıq gətirdi. Mədəniyyətimizin, incəsənətimizin, dilimizin, dinimizin inkişafı Heydər Əliyev şəxsində özünü tapdı. Nə qədər ki, Azərbaycan dövləti var, o qədər də Heydər Əliyev var olacaq".

"SƏS" Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev çıxışında bildirib ki, hər bir tarixi şəxsiyyətin öz xalqı və bəşəriyyət üçün tarixi izləri mövcuddur: "Bu şəxsiyyətlərin işlətdikləri hər bir kəlam sonradan öz əhəmiyyəti və mühümlüyü ilə yeni tarixlərin yazılmasına xidmət edir. "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır", məhz bu tarixi kəlam Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevə məxsusdur. Bütün fəaliyyəti ilə xalqa, Azərbaycan dövlətinə bağlı olan Dahi Öndərimiz bu qızıl sözlərini öz əməli ilə həyata keçirdi və bu gün də həmin kəlamlar yaşadılmaqda, müasir Azərbaycanın inkişafında rol almaqda davam edir".

B.Quliyev əlavə edib ki, uzaqgörənliyi və müdrikliyi ilə xalqı, Vətəni və dövləti üçün çalışan, bu yolda əməyini əsirgəməyən Dahi Şəxsiyyət Heydər Əliyev istər Azərbaycanın, istərsə də dünyanın siyasi mühitinə LİDERLİK simvolu olaraq həkk olundu: "Müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən parlaq səhifəsi Ulu Öndər Heydər Əliyev tərəfindən yazıldı. Heydər Əliyev bizə bugünkü və gələcək nəsillər üçün müstəqil, çiçəklənən bir dövləti - müstəqil Azərbaycanı miras qoydu. Bu gün Dahi Öndərimiz aramızda olmasa da, onun yaratdığı dövlətçilik fəlsəfəsi hər gün də bizimlə qoşa, hətta bizdən öndə addımlayır, yaşayır, yaşadılır".

Sonda bir qrup iştirakçıya 2018-ci il aprel tarixində keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasında fəal iştirakına görə Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının Fəxri Fərmanı təqdim olunub.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Mayın 4-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəlikdəki dörd məsələni təqdim edib. Qeyd olunub ki, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda, eləcə də "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlarda dəyişikliklər edilməsində məqsəd ombudsmanın, deputatların və bütün hakimlərin sosial müdafiəsinin yaxşılaşdırılmasıdır. Parlament həmin qanun layihələrinə müsbət münasibət bildirib.***



Sonra iclasda "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı haqqında" məsələyə baxılıb. Daxili işlər nazirinin birinci müavini, insan alverinə qarşı mübarizə üzrə milli koordinator Vilayət Eyvazov parlamentdə geniş məruzə edib.

Bildirilib ki, XXI əsrin təhdid və çağırışlarından olan insan alveri ilə mübarizədə dünya birliyinin səyləri problemin qloballığı baxımından ötən il daha da gücləndirilib. Əvvəlki illərlə müqayisədə daha çox - 14 min 897 fakt və 66 min 520 qurban müəyyən edilib. Təqsirkar şəxslər barəsində məhkəmələr tərəfindən 9 min 71 ittiham hökmü çıxarılıb. Ümumbəşəri dəyərlərə sadiq olan Azərbaycanda insan alverinə qarşı mübarizədə Milli Fəaliyyət Planında təsbit edilmiş bütün tədbirlər əlaqədar qurumların iştirakı ilə 2017-ci ildə də tam yerinə yetirilib.

İlk növbədə, qlobal çağırışlara cavab verən qanunvericilik bazasından söz açan məruzəçi vurğulayıb ki, insan alverinə qarşı mübarizənin səmərəliliyini təmin etmək üçün Azərbaycan parlamenti ötən illər ərzində formalaşdırdığı hüquqi bazanı hesabat ilində daha da zənginləşdirib. Bu amil hüquqazidd əməllərə və insan alverinə qarşı tərəfdaş ölkələrlə birgə fəaliyyət üçün yeni imkanlar açıb. Hesabat dövründə cinayətin təqibi və profilaktik işin gücləndirilməsi diqqət mərkəzində olub, maarifləndirmə işləri aparılıb, vətəndaş cəmiyyəti institutları ilə əlaqələr gücləndirilib, beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi genişləndirilib, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrası diqqətdə saxlanılıb, gənclərin məlumatlandırılması məqsədilə silsilə tədbirlər keçirilib. Həmçinin sosial şəbəkələrdə yeniyetmələrin tərbiyəsini və psixoloji durumunu pozan materialların yayılmasının qarşısını almaq üçün normativ hüquqi aktların layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Ötən il ərzində ölkəmizdə 80 mindən çox yuxarı sinif şagirdi və onların valideynləri ilə, həmçinin bir sıra ali məktəblərin tələbələri ilə görüşlər keçirilib. Həmin görüşlərdə uşaqların və gənclərin insan alverindən müdafiəsi məsələləri geniş müzakirə olunub. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə filmlər çəkilərək nümayiş etdirilib.

Vilayət Eyvazov qeyd edib ki, insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərdə bir sıra nazirliklər və qurumlar, beynəlxalq təşkilatların nümayəndəlikləri, ali məktəblər yaxından iştirak ediblər. Təbliğat işinin təşkilində 45 ictimai təşkilatı birləşdirən QHT Koalisiyası, KİV, vətəndaş cəmiyyəti institutları böyük rol oynayıb. Onlar arasından təşəbbüskarlığı ilə fərqlənən 15 ictimai birlik DİN tərəfindən mükafatlandırılıb. Onların təqdim etdikləri ümumi dəyəri 104 min manat olan 16 layihə Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən maliyyələşdirilib. Uşaq əməyinin istismarının qarşısını almaq məqsədilə polis orqanları tərəfindən reydlər keçirilib, küçələrdə işləyən və dilənən 570 uşaq aşkar edilib, 220 valideyn barəsində inzibati tənbeh tədbiri görülüb. Yetkinlik yaşına çatmayan 150 uşağa və onların valideynlərinə Bakıda, Gəncədə və Qubada fəaliyyət göstərən müvafiq sığınacaqlarda ixtisaslı hüquqi və psixoloji yardımlar göstərilib. 2017-ci ildə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 142 insan alveri, 6 məcburi əmək cinayəti aşkarlanıb. İnsan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərə dair 26 fakt aşkara çıxarılıb, 17 nəfərdən ibarət 8 cinayətkar qrup zərərsizləşdirilib. İnsan alveri və məcburi əmək faktlarına görə başlanılmış cinayət işlərindən 28-nin istintaqı tamamlanıb, 33 şəxs məhkəmə məsuliyyətinə cəlb olunub, onlardan 29-u barəsində ittiham hökmü çıxarılıb. İnsan alveri qurbanlarından 65-i müvəqqəti sığınacağa yerləşdirilərək tibbi, psixoloji və hüquqi yardım alıb. Bütövlükdə 68 qurban sosial xidmətlərlə təmin olunmaq üçün QHT-lərə və İnsan alveri qurbanları üçün Yardım Mərkəzinə istiqamətləndirilib, 21 nəfər işlə təmin edilib, 6 nəfər peşə kursuna göndərilib, 55 nəfər ailəsinə qaytarılıb.

Çıxışının sonunda milli koordinator Vilayət Eyvazov insan alverinə qarşı mübarizədə dövlət siyasətinin həyata keçirilməsinə böyük fayda gətirən səmərəli əməkdaşlığa görə millət vəkillərinə, vətəndaş cəmiyyəti institutlarına və media nümayəndələrinə minnətdarlıq bildirib.

İllik məlumat dinlənildikdən sonra parlamentdə müzakirələr başlanıb. Deputatlar Fazil Mustafa, Zahid Oruc, Fəzail Ağamalı, Sahib Alıyev, Siyavuş Novruzov rəy və təkliflərini bildiriblər. Milli Koordinatorun illik məlumatı səsə qoyulub və nəzərə alınıb.

Sonra iclasda aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov qanunvericiliyin uyğunlaşdırılması baxımından "Torpaq islahatı haqqında" Qanunda və Torpaq Məcəlləsində dəyişiklikləri şərh edib. Bildirib ki, bu zərurət "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Qanunda ötən ilin sonunda edilmiş dəyişikliklə əlaqədar meydana gəlib. Hər iki qanun qəbul edilib.

Plenar iclasda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Milli Məclisə bir zərfdə daxil olmuş altı qanun layihəsini şərh edib. Bildirilib ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Bank olmayan  kredit təşkilatları haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişikliklər edilməsi bu qanunvericilik aktlarının "Reklam haqqında" Qanuna uyğunlaşdırılması vacibliyindən irəli gəlib.

Deputatlar Elmira Axundova, Musa Quliyev, Çingiz Qənizadə, Əflatun Amaşov, Qənirə Paşayeva, Aqil Abbas, Zahid Oruc, Hikmət Məmmədov, Siyavuş Novruzov qanun layihələrinə dair fikirlərini açıqlayıblar. Dəyişikliklərin çox vacib məsələləri əhatə etdiyi vurğulanıb. Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov çıxışlara münasibət bildirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Gündəlikdəki növbəti yeddi qanun layihəsini mədəniyyət komitəsinin sədri Rafael Hüseynov təqdim edib. Bildirib ki, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında", "Mədəniyyət haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Memarlıq fəaliyyəti haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanunlara edilən dəyişikliklər Azərbaycan Prezidentinin 24 noyabr 2016-cı il tarixli Fərmanına əsasən "mərkəzi icra hakimiyyəti orqanının statusuna bərabər sayılan dövlət orqanı" hüquqi statusuna malik Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi əsasında "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi" publik hüquqi şəxs yaradılması ilə əlaqədardır. Dəyişikliklər "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 6 sentyabr tarixli Prezident Fərmanına uyğunlaşdırma məqsədi daşıyır. Səsvermə zamanı deputatlar bu qanunların qəbul edilməsini məqsədəuyğun sayıblar.

Parlament idarəetmədə mühüm amil olan mühasibat uçotuna dair qanun layihəsinə də baxıb. Qeyd olunub ki, ölkəyə xarici investisiya axınının artırılması, iqtisadiyyatın şaxələnməsi və sahibkarlığın inkişafı üçün əlverişli imkanların yaradılması beynəlxalq tələblərə uyğun mühasibat uçotunun aparılmasını və maliyyə hesabatlarının tərtib edilməsini aktuallaşdırıb. Bu baxımdan "Mühasibat uçotu haqqında" Qanuna təklif olunan dəyişikliklər razılıqla qarşılanıb.

Qanun layihələrinin müzakirəsində Qüdrət Həsənquliyev, Ülviyyə Həmzəyeva, Aydın Hüseynov rəy və təkliflərini bildiriblər.

Gündəlikdəki növbəti iki qanun layihəsini əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli təqdim edib. İclasda "Sosial sığorta haqqında" Qanuna edilən redaktə xarakterli dəyişiklik qəbul olunub.  Sonra "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb. Sənəd əsas kimi qəbul edilib. Deputatlar Tahir Kərimli, Qüdrət Həsənquliyev, Əli Məsimli, Tahir Rzayev, Musa Quliyev, Qənirə Paşayeva,  Rauf Əliyev, Sədaqət Vəliyeva, Araz Əlizadə, Məlahət İbrahimqızı rəy və təkliflərini bildiriblər.  İclasda iştirak edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Natiq Məmmədov səslənən təkliflərə münasibət bildirib, deputatları maraqlandıran məsələlərə aydınlıq gətirib.  Fikir mübadiləsindən sonra 8 fəsil, 40 maddədən ibarət qanun layihəsi əvvəlcə fəsil-fəsil, sonra bütövlükdə səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

MÜSTƏQİL AUDİTORUN RƏYİ

"TƏMIR TIKINTI AzNY" QSC-nin İdarə heyətinə:

*Maliyyə hesabatları üzrə auditor hesabatı*

Biz "TƏMIR TIKINTI AzNY" QSC-nin ("Müəssisə") 31 dekabr 2017-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə məcmu gəlirlər, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

*Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti*

Hazırkı maliyyə hesabatların Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və eləcə də saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemininə görə Rəhbərlik məsuliyyət daşıyır.

*Auditorun məsuliyyəti*

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz, auditi Milli Mühasibat Uçotu Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

*Rəy*

Bizim rəyimizcə, əlavə edilən maliyyə hesabatları "TƏMIR TIKINTI AzNY" QSC-nin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**TƏMIR TIKINTI AzNY QSC**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2017-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 2017 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Vergidən əvvəlki mənfəət | | 121,216 |
| Düzəlişlər: | | |
| Mal-materialın silinməsi | | - |
| Binalar, qurğular və avadanlıqlar üzrə amortizasiya xərcləri | | 13,491 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **134,708** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | |
| Debitor borclarda xalis (artım)/azalma | | 207,072 |
| Mal-material ehtiyatlarında xalis (artım)/azalma | | (7,185) |
| Kreditor borclarda xalis artım/(azalma) | | (90,786) |
| Digər öhdəliklərdə xalis artım/azalma | | - |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | |
| Ödənilmiş mənfəət vergisi | | - |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **243,809** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Bina, Qurğu və Avadanlıqların alınması | | (31,492) |
| Qeyri maddi aktivlərin alınması | | - |
| Əsas vəsaitlərin satışından gəlir | | - |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş xalis pul vəsaitləri** | | **(31,492)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Kapitalın artırılması | | - |
| Digər borc götürülmüş vəsaitlərdən daxilolmalar | | - |
| Borc götürülmüş digər vəsaitlərin qaytarılması | | (119,280) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | 1,694 |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma/(azalma)** | | **94,811** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | | **11,949** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | | **106,760** |

**TƏMIR TIKINTI AzNY QSC**

**MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT**
**31 DEKABR 2017-CI İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 2017 | 2016 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Binalar, Qurğular və Avadanlıqlar | 5 | 176,722 | 194,723 |
| Qeyri maddi aktivlər | | - | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **176,722** | **194,723** |
| **Cari Aktivlər** | | | |
| Mal-material ehtiyatları | 6 | 7,858 | 673 |
| Debitor borcları | | - | 1,144,294 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 7 | 106,760 | 11,949 |
| Alınmış sərvətlər üzrə ƏDV | 7 | 13,424 | 342 |
| Vergi və sosial ayırmalar üzrə artıq ödəmə | | 41,198 | 339,349 |
| Digər aktivlər | | 9,496 | 4,974 |
| **Cəmi cari aktivlər** | | **178,736** | **1,501,581** |
| **CƏMİ AKTİVLƏR** | | **355,458** | **1,696,304** |
| **KAPİTAL** | | | |
| Cari ilin mənfəəti | | 121,216 | 797,405 |
| Əlavə kapital | | 43,554 | 43,554 |
| Nizamnamə kapital | 8 | 194,436 | 194,436 |
| Bölüşdürülməmiş mənfəət | | (662,887) | (1,460,292) |
| **Müəssisənin səhmdarlarına aid kapital** | | **(303,681)** | **(424,883)** |
| **CƏMİ SƏHMDAR KAPİTALI** | | **(303,681)** | **(424,883)** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Bank kreditləri | 9 | 255,000 | 374,240 |
| Kreditor borcları | 10 | 92,766 | 6,503 |
| Digər qısa müddətli öhdəliklər | | 298,319 | 603,683 |
| Gələcək dövrlərin xərcləri | | 13,055 | 8,532 |
| Digər öhdəliklər | | - | 1,101,944 |
| **Cəmi cari öhdəliklər** | | **659,139** | **2,121,186** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **659,139** | **2,121,186** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **355,458** | **1,696,304** |

# Ermənistanda xalq-iqtidar savaşı şiddətləndi

*Hakim Respublika Partiyası sözdə bir, əməldə başqa siyasət yürüdür - Paşinyan aldadılır*





**Hakim Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov jurnalistlərə bu sualı ünvanlayıb: "Axı sizə kim deyib ki, fraksiya "xalq namizədinə" səs verəcək?"**

Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov jurnalistlərlə söhbətində hakim partiyanın fraksiyasının Nikol Paşinyana səs verməsi ətrafındakı sualları cavablandırarkən, özü qarşı tərəfə sual ünvanlayıb. SİTAT: "Axı sizə kim deyib ki, fraksiya "xalq namizədinə" səs verəcək?" Şarmazanov, sadəcə, bildirib ki, mayın 8-də keçiriləcək növbəti səsvermədə Respublika Partiyasının 53 səsi lazımdırsa, bu, olacaq. Lakin bu da, belə deməyə əsas vermir ki, fraksiya Paşinyana səs verəcək.

Göründüyü kimi, hakim partiyanın mətbuat katibi, sadəcə, deputatların səs verəcəklərini deyib və bütün respublikaçıların Paşinyana səs verəcəkləri ehtimalının sıfıra bərabər olduğunu dolayısı ilə bəyan edib.



Artıq bir aydır ki, Ermənistanda davam edən kütləvi etiraz dalğası xalq-iqtidar savaşına doğru sürətlə irəliləməkdədir. Hətta Serj Sarkisyanın istefası belə, yaranmış problemin həllinə yardımçı olmadı. Daha dəqiq desək, faktiki olaraq, Qərb-Rusiya qarşıdurması fonunda cərəyan edən hadisələrin çərçivədən çıxaraq, qanlı qiyamla nəticələnməsi ehtimalı artıb. Maraqlısı da budur ki, Nikol Paşinyanı xalqın böyük əksəriyyəti dəstəkləsə də, parlament amili bu dəstəyi kölgədə qoyur. Təkcə, mayın 1-də Paşinyanın baş nazirliyə namizədliyinin təsdiqlənməməsi də, belə deməyə zəmin yaradır ki, "məxməri inqilab" xəmiri hələ çox su aparmalı olacaq. Belə ki, hakim Respublika Partiyasının parlament fraksiyası səs çoxluğu faktından məharətlə istifadə etməklə yanaşı, var qüvvəsi ilə Paşinyanın hakimiyyətə doğru gedən yoluna ciddi baryer qoyub. Bu isə hiddətlənmiş kütləni qızışdırır, "məxməri inqilab"ın qanlı toqquşmalarla əvəzlənməsinə stimul verir.

**Qərb öz siyasi maraqlarını Ermənistanda tətbiq edərsə belə, yenə də bu ölkənin Rusiyanın təsiri altında qalacağını istisna etmir**

Düzdür, bir sıra xarici medialar, məsələn, ABŞ-ın "Washinqton Post" nəşri yazır ki, Rusiya prezidenti Vladimir Putin bütün Ermənistanı itirməkdənsə, müttəfiqi Serj Sarkisyanı qurban verməyə razılaşdı. Məhz bu ifadə kontekstindən məsələyə yanaşarsaq, belə düşünə bilərik ki, hətta Qərb öz siyasi maraqlarını Ermənistanda tətbiq edərsə belə, yenə də bu ölkənin Rusiyanın təsiri altında qalacağını istisna etmir. Yəni bu gün iqtidarda olan Respublika Partiyasının siyasi davranışları, verdikləri qərarları ilə "Washinqton Post"un yazdıqlarını uzlaşdırsaq, belə bir nəticəyə gələ bilərik ki, bu gün Ermənistan parlamentində Paşinyanın qarşısını kəsən iqtidar deputatları, bilavasitə Rusiyanın siyasi qərarlarını icra edirlər.

**Respublika Partiyasının parlament fraksiyasının katibi Qaqik Malikyan Paşinyanı rədd edir: "Yenə də həmin səsimi verəcəyəm və prinsipimdən geri çəkilməyəcəyəm"**

İqtidar partiyasının digər funksioneri, təşkilatın parlament fraksiyasının katibi Qaqik Malikyan isə bildirib ki, şəxsən onun Paşinyana münasibəti dəyişilməyib. "Mənim kefim elə əvvəlki kimidir. Mənim üçün heç nə dəyişilməyib"-deyə Malikyan jurnalistlərlə söhbətində bildirib. Medianın ona ünvanladığı suala gəlincə, yəni mayın 8-də onun Paşinyana səs verib-verməyəcəyi ilə bağlı Respublika Partiyasının parlament fraksiyasının katibi tam qətiyyətlə deyib: "Bu, artıq mənim öz işimdir və qərarımı da özüm verəcəm. Şəxsən mən, necə səs vermişdimsə, yenə də həmin səsimi verəcəyəm və prinsipimdən geri çəkilməyəcəyəm". Qeyd edək ki, Malikyan mayın 1-də keçirilən səsvermədə Nikol Paşinyanın əleyhinə səs vermişdi. Beləliklə, fakt budur ki, artıq Ermənistandakı vəziyyət, bilavasitə xalq-iqtidar qanlı toqquşmalarına doğru inkişaf edir və bu tarixin mayın 8-də start götürəcəyini ehtimal etmək mümkündür. Hər halda, Respublika Partiyasının bəlli qərarları və hakimiyyəti əlində saxlamaq cəhdlərindən maksimum istifadə etmələri belə qənaətə gəlməyə kifayət qədər zəmin yaratmış olur.

**Rövşən NURƏDDİNOĞLU**

# Müsavatın “söz azadlığı” oyunbazlığı

## Yaxud Beynəlxalq Söz və Mətbuat Azadlığı Günündə Arif Hacılı ikitirəliyi

***Bütün ölkələrdə olduğu kimi, Azərbaycan mediasının təmsilçiləri də Beynəlxalq Söz və Mətbuat Azadlığı Gününü qeyd etdi. Belə bir tarixin əhəmiyyəti barədə müxtəlif fikirlər və münasibətlər səsləndirildi. Söz yox ki, ölkəmizdə söz və media azadlığı kifayət qədər münbit əsaslara söykənir, bu isə belə deməyə zəmin yaradır ki, əgər bu faktor olmasa idi, ölkə mətbuatımız inkişaf meyarlarından kənarda qalardı. Xüsusilə, söz və mətbuat azadlığı istər yazılı, istər elektron mediada öz inkişafını göstərir ki, minlərlə jurnalist təşkilatı həmin istiqamətdəki fəaliyyətini şaxələndirir və tərəqqi etdirir. Əgər belə olmasa idi, Azərbaycanda fəaliyyət göstərən və müxtəlif siyasi-ictimai baxışları əks etdirən saytlar, qəzetlər və portallar fəaliyyət göstərməzdi.***

Lakin bu mənada fikir və mülahizələr apararkən, özlərini müxalifət “liderləri” kimi zorla ictimai rəyə sırıyan adamların təəssüfdoğurucu “düşüncələri”nin şahidlərinə çevrilirik. Misal üçün, məhz Beynəlxalq Söz və Mətbuat Azadlığı Günündə AXCP sədri Əli Kərimlidən geri qalmayan, Müsavat başqanı Arif Hacılının və onun nəzarətində olan saytın media təmsilçiləri arasında sərgilədiyi ayrıseçkiliyi göstərə bilərik. Məsələ ondadır ki, Müsavat partiyası, daha doğrusu, A.Hacılı dövlətçilik maraqlarına xidmət edən həqiqi jurnalistləri bir kənara qoyub, nədənsə, dövlətin qanunlarını pozan, jurnalistlik fəaliyyəti adı altında tamamilə fərqli mövqe sərgiləyən, peşəsinin adına xələl gətirərək, cinayətlər törədən fərdləri “jurnalist” adlandıraraq, onları öz təbirincə təbrik edib. Bu, azmış kimi, Azərbaycanda mövcud olan müstəqil və azad mətbuatın guya basqılara məruz qaldığını əlində heç bir fakt-sübut olmadan iddia edən Hacılı, məhz özünü və ailə podratına çevirdiyi partiyasını cinayət törədərək, həbs edilmiş “jurnalistlər”in azadlığa çıxacağı yönündə fəaliyyətini artıracağını bildirib. Maraqlıdır, bir sıra xarici dairələrin buyruq qullarına çevrilən, digər qaranlıq əməlləri nəticəsində qanunlarımıza hörmətsizlik edən, eləcə də reketçilik, şantajçılıq, böhtançılıq edənlər nə zamandan jurnalist dairələrinin “aparıcı fiqurları” oldular ki, indi də A.Hacılı özünü reklam edərək, fəaliyyətini həmin istiqamətdə davam etdirəcəyini bəyan edir?

Başqa tərəfdən, o da sirr deyil ki, bu gün Azərbaycanın bütün istiqamətlərdəki inkişafını gözü götürməyən müəyyən xarici təşkilatlar, Qərb qurumları zaman-zaman həmin inkişafa qarşı yersiz-sübutsuz hesabatlar hazırlayır və bu vasitələrlə dövlətçilik maraqlarımıza xələl vurmağa cəhdlər göstərirlər. Halbuki bu gün Qərb ölkələrində sosial media ilə yanaşı, mətbuata və jurnalistlərə basqılar kifayət qədərdir. ABŞ-da, Böyük Britaniyada, Fransada, Hollandiyada və s. Qərb dövlətlərində fəaliyyət göstərən bloggerlərin əksəriyyəti təqib və təzyiqlərə məruz qaldıqlarına görə ölkələrini tərk edib, bu və ya digər ölkələrdə siyasi sığınacaqlar alıblar. Nəyə görə A.Hacılı bu faktları önə çıxarmır, əksinə, Azərbaycandakı inkişaf amillərinə qara yaxmağa cəhdlər göstərir? Əlbəttə, bu sualın cavabı məlumdur - A.Hacılı, sadəcə, dövlət maraqlarını sataraq, kimlərinsə qarşısında nə qədər sadiq nökər olduğunu nümayiş etdirməyə çalışır.

Bu gün biz, elə A.Hacılının özünə bu sualı verə bilərik ki, əgər Azərbaycanda söz və media azadlığı onu “təmin” etmirsə, bu zaman partiyasına məxsus saytı necə işlədir? Bu fərd sosial şəbəkələrdə öz fikirlərini necə qeyd edir? Ümumiyyətlə, Hacılı bu barədə düşünübmü? Əlbəttə düşünüb. Sadəcə, ona reallığı, həqiqəti deməyi bəlli ağaları qadağan edib. Ona da, bu sərf etmir...

Deməli, Azərbaycanda bütün azadlıqlar, o cümlədən, söz və mətbuat azadlığı kifayət qədər təmin olunub. Müxalifət deyilən psevdoşivənçilər əllərinə düşən hər imkanda bu dövlətin əldə etdiyi uğurları qaralamağa çalışırlar. Ancaq göründüyü kimi, heç bir nəticə əldə edə bilmirlər. Çünki həqiqəti danırlar. Həqiqəti dananlar isə dövlətini, vətənini, hətta belə davam edərsə, öz yaxın ətraflarını da danarlar. Belələrindən isə, açığı, bunu gözləməyə dəyər...

**Rövşən RƏSULOV**

# Müxalifət düşərgəsində yeni qarşıdurmanın əsası qoyulur

## Təhmasib Novruzov: “Müxalifətin ifşası, həm də onlara himayədarlıq edən məkrli xarici maraqlı qüvvələrin ifşası deməkdir”

***Müxalifət partiyaları arasında yenidən başlayan qarşılıqlı ittihamlar düşərgə daxilində növbəti çəkişmələrə start verib. Artıq birgə mitinqlər keçirmək arzusu ilə eyni mövqedən çıxış edən “Milli Şura” ilə Müsavat arasında da ciddi qarşıdurmalar yaranıb. Məhz bu qarşıdurmanın ağır nəticəsi olaraq, bu iki qurumun mayın 5-inə planlaşdırdığı mitinq təxirə salındı. Bu baxımdan, maraqlı məqam ondan ibarətdir ki, çəkişən müxalifət funksionerləri bir-biri haqqında ifşaedici açıqlamalarla çıxış edirlər.***



“Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov “Səs” qəzetinə açıqlamasında bildirdi ki, müxalifətin ifşası, həm də onlara himayədarlıq edən məkrli xarici maraqlı qüvvələrin ifşası deməkdir: “Azərbaycanda hər hansı bir problem yaranırsa, müxalifət düşərgəsini təmsil edən şəxslər çalışırlar ki, bu problemi daha da böyüdərək, ondan öz siyasi maraqları üçün istifadə etsinlər. Bunun da səbəbi xaricdə olan havadarlarına özlərini reklam etməkdir. Yəni onlar daha doğrusu, biz fəaliyyət göstəririk. Bir sözlə, heç bir sözü, təklifi və inkişaf üçün bacarığı, qabiliyyəti olmayan şəxslərin ölkəmiz haqqında xoşagəlməz fikirlər səsləndirməsi onların yaramaz bir qrup olduğunu təsdiqləyir”.

### “Əli Kərimli kimi satqınlar cəzasız qala bilməzlər”

T.Novruzovun sözlərinə görə, dağıdıcı müxalifətin milli maraqlara zərbə vurmağa hesablanan addımlar atması və çağırışlarla çıxış etməsi satqınlıq və xəyanətdir. Belə şəxslər mütləq cəzalanmalıdır: “Əli Kərimli kimi satqınlar cəzasız qala bilməzlər. Ümumiyyətlə, milli və dövlətçilik maraqlarına zidd yol tutanlara aman verilməməlidir. Dağıdıcı müxalif təmsilçiləri vaxtaşırı müəyyən məsələlər tapırlar ki, gündəmdə bir müddət qala bilsinlər. Bununla da, diqqəti özlərinə cəlb etmək istəyirlər. Amma müxalifət təmsilçiləri bilməlidilər ki, onlar bu cür yersiz hərəkətləri ilə özlərini daha da gözdən salırlar. Müxalifət partiya sədrləri çox gözəl başa düşürlər ki, bu gün onların ictimai rəydə uğur qazanmaq şansları yoxdur. Bunu bilə-bilə müxalifət yenə də öz hərəkətlərindən əl çəkmir. Bu isə, onların müstəqil olmadıqlarını bir daha təsdiqləyir”.

**GÜLYANƏ**

# Şəmkirdə iki kiloqramdan çox narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb



Şəmkir Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri uğurlu əməliyyat tədbirləri nəticəsində 2 kiloqramdan artıq narkotik vasitə aşkarlanaraq qanunsuz dövriyyədən çıxarılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, mayın 3-də Şəmkir Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayonun Çinarlı kəndində yaşayan Anar Əliyevin evindən 2 kiloqram 210 qram qurudulmuş marixuana aşkarlanaraq götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq davam etdirilir.

# “İrəvandakı gəncləri ABŞ ayağa qaldırır”

“İrəvandakı hadisələr ABŞ-ın erməni gəncliyinə təsirinin nəticəsidir.” Axar.az xəbər verir ki, bu sözləri öz Teleqram səhifəsində Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski paylaşıb. Onun sözlərinə görə, ABŞ artıq intelligensiya yox, gənclərə yatırım edir: “Onlar başa düşürlər ki, intelligensiya daha zərifdir və iradələri də azdır. Onlar sərt fəaliyyətlərə hazır deyillər. Gənclər isə öz nəsillərində hansısa inqilabın olması üçün acdırlar və daha aqressiv hərəkət edirlər. Bu da öz nəticəsini verir”.

# Goranboyda 21 yaşlı qız intihara cəhd edib

Goranboy rayonunda 21 yaşlı qız intihara cəhd edib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə Dəliməmmədli şəhəri ərazisində baş verib. Goranboyun Ağamalıoğlu kənd sakini, 1997-ci il təvəllüdlü Kazımova Sevinc Xaliq qızı Bakı-Qazax magistralı üzərində yerləşən körpüdən özünü atıb. Ayağından sınıq xəsarətləri alan S. Kazımova Gəncə 1 saylı şəhər xəstəxanasına yerləşdirilib, vəziyyətinin kafi olduğu bildirilir. İlkin məlumata görə, hadisə ailə münaqişəsi zəmində qeydə alınıb.

# Latviyada uşaqların və gənclərin Rusiya hərbi düşərgələrində iştirakı qadağan olundu

Latviya Parlamenti ölkə qanunvericiliyinə bu respublikadan olan uşaqların və gənclərin Rusiya və bəzi başqa ölkələrin ərazisində yerləşən hərbi düşərgələrdə iştirakının qadağan edilməsi barədə düzəlişləri üçüncü, sonuncu oxunuşda böyük səs çoxluğu ilə təsdiqləyib. NATO və Avropa İttifaqına üzv ölkələrdə keçirilən hərbi xarakterli tədbirlər istisna təşkil edir.Uşaq hüquqlarının müdafiəsi haqqında qanuna edilən müvafiq düzəlişlərin təşəbbüsçüsü kimi hakim koalisiyaya daxil olan “Yaşıllar” və Kəndlilər İttifaqından Seymin deputatı Karlis Serjants çıxış edib.

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə insan hüquq və azadlıqlarının müdafiəsi

***Azərbaycan Xalq Cümhuriyyətini elan edənlərin fəaliyyətini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev hadisələrin xronoloji baxımından təhlilini verərək demişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, "İstiqlal Bəyannaməsi"nin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət və iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz o il, o ay, o gün bu tarixi addımı atdılar". Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun səbəblərini xüsusi vurğulayan Heydər Əliyev bir daha bu məsələyə toxunaraq bildirmişdir: "1920-ci il aprelin 27-28-də Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə son qoyulmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun həyata keçirdiyi tədbirlərə yüksək qiymət verən Ulu Öndər Heydər Əliyev Cümhuriyyətin dərslərindən də nəticə çıxarmağı tövsiyə edərək qeyd edir: "1918-1920-ci illərdə Xalq Cümhuriyyətinin həyatında olmuş çəkişmələr, didişmələr, hakimiyyət mübarizəsi və şəxsi mənafeyinə görə ümummilli mənafeyə zərbələr vurulması acı həqiqətdir. Biz keçmişimizdən ibrət götürməliyik, keçmişimizin zərərli tərəflərinin yenidən cücərməsinə yol verməməliyik".***

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyində Ulu Öndər Heydər Əliyev 1918-1920-ci illərdə Azərbaycanın dövlət müstəqilliyini və 2 illik fəaliyyəti ilə dünya dövlətlərinin sırasına qoşulmuş milli hökumətin fəaliyyətini yüksək qiymətləndirərək demişdir:

Cümhuriyyətdə vətəndaş cəmiyyəti quruculuğu məsələsinə toxunan Vasif Cəfərov yazır ki, Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün Seymin 44 nəfər müsəlman nümayəndələri Tiflisdə toplanır və Azərbaycanın idarə olunmasını öz üzərlərinə götürmək qərarına gələrək özlərini Azərbaycanın Milli Şurası elan edirlər.

1918-ci il sentyabrın 15-də Bakı Qafqaz İslam Ordusu tərəfindən azad olunduqdan sonra sentyabrın 17-də F.X. Xoyski hökuməti Gəncədən Bakıya köçür. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olunur. 1918-ci il iyunun 17-də Gəncədə öz fəaliyyətini dayandıran Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da öz işini yenidən bərpa edir. Bu iclasda F.X.Xoyskinin müraciəti ilə Milli Şura Müəssislər Məclisini çağırmaq üçün görülməli olan işləri öz öhdəsinə götürür. Noyabrın 19-da Milli Şuranın M.Ə.Rəsulzadənin sədrliyi ilə keçən iclasında qeyd olunurdu ki, Azərbaycan Milli Şurası Azərbaycan ərazisində yaşayan bütün millətləri təmsil etməlidir. Azərbaycan Milli Şurasının 19 noyabr 1918-ci il tarixli iclasının qərarına əsasən, hələ 1917-ci ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman nümayəndə birbaşa yeni yaradılacaq parlamentin tərkibinə daxil edilirdi. Müsəlmanlardan qalan 36 deputat və başqa millətlərin nümayəndələri yenidən seçilməli idi. Yeni Parlamentin formalaşdırılması 1918-ci il dekabrın 3-də başa çatdırılmalı idi. Beləliklə, hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar 80, ermənilər 21, ruslar 10, almanlar 1, yəhudilər 1 nümayəndə olmaqla Azərbaycan Parlamentini 120 nəfərdən ibarət formalaşdırmaq qərara alınır. Bu məsələ ilə bağlı Milli Şuranın qəbul etdiyi qanunda göstərilirdi ki, azlıqda qalan millətlərin bütün nümayəndələri olacaq. Müsəlmanlardan isə 44 Milli Şura üzvü ümumi səsvermə yolu ilə seçildikləri üçün yeni Parlamentə üzv daxil olurlar. Qalan 36 nəfər isə əlavə şəxslər cəlb olunur. Qanunda Azərbaycanın ayrı-ayrı şəhər və qəzaları üzrə əlavə göndəriləcək nümayəndələrin sayı da müəyyən edilir. 1918-ci ilin Mart Soyqırımından hələ altı ay keçməsinə baxmayaraq, Azərbaycan Parlamentində 21 nəfər erməni nümayəndəsinin iştirakına imkan yaradıldı. O zamankı tarixi şəraitdə atılan bu addım Azərbaycan xalqının demokratik təbiətinə, insan haqlarına nə qədər dərin hörmətlə yanaşmasına parlaq sübutdur. Parlament demokratiyamızın bu parlaq faktı 1918-ci il noyabrın 29-da xalqa müraciətdə də əks olunmuşdu: "...Bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix hamımızı bir yerdə yaşamaq məcburiyyətində qoyub. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək üçün yaşayışımızı aqil və insani əsaslar üzərində quraq, bir-birimizi sevək, ehtiram edək. Milli və məzhəb fərqlərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşları bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və öz səadətlərinə birlikdə yetişmək üçün onlar bir-birlərinə əl uzatmalı və yardım etməlidirlər". Bakıda fəaliyyət göstərən rus və erməni milli şuraları əleyhinə olduqları Azərbaycan Parlamentinin açılmasına hərtərəfli mane olmaq üçün bu ərəfədə Bakıya gəlmiş müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etməyə çalışırdılar. General Tomsonla aparılan danışıqlarla əlaqədar olaraq və qəzalardan bütün deputatların Bakıya gələ bilməsini nəzərə alaraq Parlamentin ilk iclasının açılışı dekabrın 7-nə keçirilir. 1918-ci il dekabrın 7-i H.Z.Tağıyevin Nikolayev (indiki İstiqlaliyyət) küçəsində yerləşən keçmiş Qız Məktəbinin binasında müsəlman Şərqində ilk Parlamentin birinci iclasının açılışı oldu. Ə.Topçubaşov Parlamentin sədri, Həsənbəy Ağayev isə sədrin birinci müavini seçilirlər. Parlamentin 3 nəfərdən ibarət katibliyi də seçilir, Mehdi bəy Hacınski baş katib seçilir. Azərbaycan Parlamenti yarandığı ilk gündən öz işlərini demokratik cümhuriyyətlərə xas təşkilati prinsiplər əsasında qurur. Artıq 1919-cu ilin axırlarına yaxın Parlamentdə 11 müxtəlif partiya fraksiyası və qrupunu cəmi 96 deputat təmsil edirdi. Bütün partiya fraksiya və qrupları öz fəaliyyət proqramları haqqında bəyanatlar verirlər. Bu bəyanatlarda ümumi bir məqsəd var idi. Gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli və siyasi hüquqlarını qoruyub-saxlamaq Azərbaycan xalqının və hökumətinin digər xalqlar və dövlətlərlə, xüsusilə, qonşu dövlətlərlə dostluq əlaqələrini yaratmaq və möhkəmləndirmək, respublikada hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, geniş sosial islahatlar həyata keçirmək, ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq. Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti özünün həyatiliyi və yüksək işgüzarlıq qabiliyyətini sübut etdi. Göstərdi ki, Azərbaycan xalqı, həqiqətən, parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdir. V.Cəfərovun fikrincə, o vaxt Azərbaycan Cümhuriyyəti müsəlman Şərqində yeganə parlamentli respublika idi. Bu dövr ərzində Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilir. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas isə 1920-ci il aprelin 27-də olur. Fəaliyyət müddətində Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxını təsdiq edilib. Parlamentin fəaliyyəti, bilavasitə onun nizamnaməsi rolunu oynayan "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" ilə tənzimlənirdi. Parlamentdə 11 komissiya fəaliyyət göstərirdi. Maliyyə büdcə, qanunvericilik təklifləri, Müəssislər Məclisinə seçkilər keçirmək üzrə mərkəzi komissiya, mandat, hərbi və aqrar məsələlər: sorğular üzrə, təsərrüfat-sərəncamverici, ölkənin istehsal qüvvələrindən istifadə üzərində nəzarət, redaksiya və fəhlə məsələləri üzrə komissiyaları idi. Azərbaycan Xalq Cümhuriyyəti hüquqi dövlət yaratmaq üçün hakimiyyətin qanunvericilik, icraedicilik və məhkəmə orqanlarına bölünməsi prinsipini də nəzərdə tuturdu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin, bütövlükdə, fəaliyyəti daha çox ölkənin sosial-iqtisadi və maliyyə problemlərinin həllinə, ölkənin siyasi və ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquqlarını qorumaq, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirmək, Azərbaycan Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınması üçün şərait yaratmaq, onun xarici ölkələr, ilk növbədə isə, yaxın qonşuları ilə siyasi, iqtisadi və ticarət əlaqələrini yaratmağa yönəlmişdi.



***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Xanımlar, bu içki xərçəng xəstəliyinə səbəb olur!

İndiki zamanda bir çox qadının qorxulu yuxusu halına gələn süd vəzi xərçəngi, hər 8 qadından birində görülür. Bir çox qadın döş xərçəngi olduğunu artıq hər şey çox gec olunda fərq edir. Döş xərçəngi bir çox qadını təhdid edən bir xərçəng növüdür. İndiki vaxtda sıx və templi həyat, hormonlu qidalar, sağlıqsız qidalanma və artan spirt istehlakı üzündən sinə xərçənginə tutulma nisbəti artmış və yayılmışdır. Təəssüf ki, bir çox qadın döş xərçəngi olduğunu artıq xəstəlik çox irəlilədiyində, ya da müalicə edilə bilməz bir hala gəldiyində fərq edir. Halbuki erkən diaqnozla döş xərçəngi müalicəsində qəti bir nəticə alına bilər. Alman alimlərinin araşdırmasına görə, döş xərçənginin əsas səbəblərini tapmaq mümkün olub.

Qadınlarda süd vəzi xərçəngi

Əgər qadın daha çox yağlı süd məhsulları işlədirsə, o, səhhəti ilə risk edir. AzadQadin.az xarici mətbuata istinadən bildirir ki, Alman alimlərinin araşdırmaları belə bir nəticə çıxarmağa imkan verir ki, bədxassəli hüceyrələrin yaranmasına kömək edən əsas amillər, xüsusilə, süd, pendir və kəsmiyin tərkibində olan yağlardır. Xüsusilə, həddindən artıq kalorili qidalanmaq sinə xərçəngi ilə əlaqəsi üzərində olduqca çox durulmuşdur. Döş xərçənginə tutulmuş xəstələrin əksəriyyətlə kilolu və iri quruluşlu olduqları müşahidə edilməkdədir. Süd vəzisi xərçənginin profilaktikası çox yağlı süd və yağlı bərk pendir istehlakını məhdudlaşdırmaq, daha sağlam qidalanmaya diqqət etmək, kilo almamağa, kalorili qidalardan uzaq durmaqdır. Bütün bunlara əməl etsəniz xəstəlik riskiniz xeyli aşağı düşər.

## Alimlər beyni yaşatmaq üsulu tapıblar

Amerikada Yel Universitetinin neyrobioloqları beyni bədəndən kənarda yaşatmaq üsulu tapıblar. AZƏRTAC "MIT Technology Review" nəşrində dərc olunan tədqiqatın nəticələrinə əsasən xəbər verir ki, professor Neyad Sestanın rəhbərliyi ilə aparılan eksperimentlər qəssabxanadan alınmış yüzlərlə donuzun başı üzərində aparılıb.

Alimləri ilk növbədə heyvanların beyni maraqlandırıb: onlar heyvanın başından götürdükləri beyində qan dövranını süni yollarla bərpa etməyə çalışıblar. Nəticədə tədqiqatçılar "BrainEx" adlı xüsusi sistem hazırlayıblar. Həmin sistem beyni onun müxtəlif hissələrinə oksigen çatdıran xüsusi mayenin dövr etdiyi qapalı qablara və borucuqlara qoşmağı nəzərdə tutur. Sistemin iş prinsipi belədir: heyvanın başı kəsildikdən təxminən dörd saat sonra alimlər "BrainEx"i beynə qoşurlar. Bundan sonra beyin 36 saat müddətində yaşamını davam etdirir. Bununla belə, elektrodlar şüuru bərpa edə bilmir, onu yalnız koma vəziyyətinə gətirə bilir.

Araşdırma müəllifləri gələcək tədqiqatlarda şüurun bərpasına da nail ola biləcəklərini güman edirlər. Onların fikrincə, indiyə qədərki tədqiqatlarda uğursuzluğa səbəb süni qanın tərkibində neyronların fəallığını zəiflədən çoxlu maddələrin olmasıdır. Professor N.Sestanin qənaətinə əsasən həmin sistem istənilən canlı orqanizmlə işləyə bilər.



## TƏBRİK EDİRİK!

**Ümid bala, 1 yaşın mübarək!**

Ümid balanı təbrik edirlər: babası Şahmərdan, nənəsi Nəhayət xanım, anası Sevinc, dayısı Vasif, xalası Selcan və bütün yaxın qohumları.

***Bu gün sizin evinizdə xoş andır,***
***Fərəhini qoy aşmasın təlaşın.***
***Təbrik edən baban, nənən, anandır,***
***Ülvi bala, mübarəkdir 1 yaşın.***

***El-obada başı uca olasan,***
***Daim olsun qəlbin təmiz, başın dik.***
***Yaşa dolub ahıl qoca olasan,***
***Nəsibin də olsun paklıq, ülvilik.***

**ELAN**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Yusifova Nəzakət Vidadi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Mariya Stadnik Avropa çempionu oldu!




Azərbaycan güləşçisi Mariya Stadnik Rusiyanın Kaspiysk şəhərində keçirilən güləş üzrə böyüklər arasında Avropa çempionatının qalibi olub. Yarışın üçüncü günündə 50, 55, 59, 68 və 76 kiloqram çəki dərəcələrində qadın güləşçilər mübarizəyə qoşulublar.

Komandamızın lideri Mariya Stadnik (50 kq) Almaniya və Rusiya təmsilçilərini tam üstünlüklə məğlub edərək yarımfinala yüksəlib. Digər güləşçimiz Səbirə Əliyeva (76 kq) isə Macarıstan təmsilçisinə qalib gələrək yarımfinala vəsiqə qazanıb. Mariya Stadnik yarımfinal görüşündə də vaxtından əvvəl qələbə qazanmaqla adını finala yazdırıb. Həlledici görüşdə güləşçimizin rəqibi Rumıniya idmançısı olub. Cəmi 32 saniyə ərzində rəqibi üzərində qələbə qazanan Mariya Stadnik Avropa çempionatında növbəti qızıl medalını təmin edib. Güləşçimiz indiyədək altı dəfə Avropa çempionatının və birinci Avropa Oyunlarının qalibi olub. Əlli doqquz kiloqram çəki dərəcəsində yarışan Tatyana Omelçenko bürünc medal uğrunda görüşə çıxıb. Belarus idmançısına tam üstünlüklə qalib gələn güləşçimiz çempionatın bürünc medalını qazanıb. Səbirə Əliyeva isə yarımfinalda Rusiya idmançısına uduzub və bürünc medal görüşünə haqq qazanıb. Həlledici görüşdə onun rəqibi Ukrayna idmançısı olacaq.



## Avropa Liqasının finalçıları məlum olub

Futbol üzrə Avropa Liqasında yarımfinal mərhələsinin cavab görüşləri keçirilib. SİA-nın məlumatına görə, "Atletiko" evdə "Arsenal"a 1:0 hesabı ilə qalib gəlib. İlk oyunda 1:1 hesablı heç-heçə qeydə alındığı üçün Madrid klubu finala yüksəlib. Digər görüşdə isə "Zalsburq" "Marsel"i 2:1 hesabı ilə məğlub edib. Lakin iki oyunun nəticəsinə görə, 3:2 hesabı ilə qalib gələn "Marsel" finala yüksəlib.

## Neymar PSJ-nin heyətinə qayıdıb



Fransanın PSJ klubunun hücumçusu Neymar zədəsini bərpa etdikdən sonra komandanın bazasına dönüb. AZƏRTAC xəbər verir ki, bu gün braziliyalı futbolçu PSJ-nin tibbi müayinəsindən keçəcək. Bu, Neymarın vəziyyətini və bərpa prosesini qiymətləndirməyə imkan verəcək.

Qeyd edək ki, PSJ mayın 4-də "Amyen" ilə qarşılaşacaq. Hücumçu bu oyunu buraxsa da, gələn turda start heyətə yer ala biləcək.



## Andres İnyesta Çin klubuna transfer olunacaq?

"Barselona"nın formasını geyinən Andres İnyesta Çin klubundan dəvət alıb. SİA-nın məlumatına görə,"Barselona"dan ayrılacaq təcrübəli oyunçunun Çinə transfer olunacağı bildirilir. İspaniya millisinin üzvünə Çin Super Liqa komandalarından olan "Çunçin Lifan" klubundan 3 illik müqavilə üçün 81 milyon avroluq fantastik təklif edilib. Çinlilərin radarına düşən 33 yaşlı ulduz futbolçu bu təklifə müsbət yanaşır.

## Marek Hamşik Neapolun fəxri vətəndaşı olacaq

Futbolçu Marek Hamşik Neapol şəhərinin fəxri vətəndaşı olacaq. SİA-nın xəbərinə görə, bu barədə slovakiyalı yarımmüdafiəçinin agenti Martn Petras məlumat yayıb. O, təcrübəli futbolçunun Çin klubundan təklif almasını da inkar edib: "İndi hər kəs "Napoli"nin layihəsinin bitməsinə inanır. Amma bunlar şaiyələrdir. Hamşikin məqsədi hər zaman bu klubda qalmaq olub. Ona başqa cür gələcək təsəvvür etmirəm". Qeyd edək ki, daha öncə Diyeqo Maradona da Neapol şəhərinin fəxri vətəndaşı adını almışdı.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**